**EVDƏ QAL, SAĞLAM QAL!**

**Prezident İlham Əliyev 176 məhkumu əfv edib**



Bax 4

**Əli Əhmədov: "Hər kəsin vətəndaş mövqeyini və şəxsi məsuliyyətini ortaya qoyması zamanıdır"**



Bax 5



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 055 (6020) 7 aprel 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## İlham Əliyev: Biz birlikdə güclüyük!



Bax 2

*"Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək!"*

Bax 5

## Qoşulmama Hərəkatına üzv ölkələr Dağlıq Qarabağda keçirilmiş qondarma "seçkilər"i tanımır

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosu Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində təşkil olunmuş qondarma "seçkilər"lə bağlı açıqlama yayıb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, BMT-dən sonra ikinci ən böyük siyasi platforma olan və 120 ölkəni...

## Sədaqət Vəliyeva: "Prezidentin Əfv Sərəncamı böyük sosial mahiyyət kəsb edir"



Prezident İlham Əliyevin dünyada koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin ona ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq imzaladığı Əfv Sərəncamı bir...

Bax 6

## Qərargah: "Bəzi KİV xüsusi karantin rejimi qaydalarını pozaraq saxta vəsiqələr verir"

Azərbaycan Respublikasında tətbiq olunmuş xüsusi karantin rejimi əhalinin sağlamlığının qorunması və ölkənin təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyır. Nazirlər Kabineti yanında Operativ Qərargahdan APA-ya bildirilib ki, tətbiq olunmuş qaydaların, o cümlədən hərəkət məhdudiyyətinin vətəndaşlar tərəfindən icra olunması təqdirəlayiq hal kimi qiymətləndirilir...



Bax 6

Bax 8-9

## Aprel döyüşləri tarixi qələbəmizdir

*Tarixi sənədlər və mövcud faktlar Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq edir və bunu, heç şübhəsiz, işğalçı Ermənistanın terrorçu başbilənləri də aydın şəkildə bilirlər. Demokratik düşüncəli...*



## Maykl Ceksonun ağ əlcəyi 104 min dollara satılıb



*Məşhur müğənni Maykl Ceksonun ağ əlcəyi ABŞ-ın Texas ştatında keçirilən hərracda satılıb. SİA xəbər verir ki, adının gizlin qalmasını istəyən alıcı əlcəyə görə 104 031 dollar ödəyib. Bildirilir ki, yeni sahib əlcəyin 1998-ci ildə...*

Bax 16

**Bəhruz Quliyev: "Azərbaycanda koronavirusla mübarizə üsulu intensiv xarakter alıb"**



Bax 6

**"Koronavirusla bağlı vəziyyət dövlət başçısının ciddi nəzarətindədir"**



Bax 7

**Paşinyan Putinə niyə zəng edib?**



Bax 5

# İlham Əliyev: Biz birlikdə güclüyük!

*“Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək!”*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında “Bakı Tekstil Fabriki” MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, müəssisə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan xalqına müraciət edib.***

İqtisadiyyat naziri Mikayıl Cabbarov və “Bakı Tekstil Fabriki” MMC-nin rəhbəri Səkinə Babayeva dövlətimizin başçısına və birinci xanıma müəssisə haqqında məlumat verdilər.

Qeyd edək ki, koronavirus pandemiyası ilə əlaqədar tələbatın kəskin artması səbəbindən bütün ölkələrdə tibbi ləvazimat və qoruyucu vasitələrin, o cümlədən maskanın böyük qıtlığı yaşanır. İstehsalçı ölkələr isə tibbi maska ixracını dayandırmaqla yanaşı, istehsal avadanlığı və xammalın ixracını da saxlayıblar. Koronavirus pandemiyasının qarşısının alınması ilə bağlı Azərbaycanda həyata keçirilən bütün işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısı əhalinin sağlamlığının təmin olunması məsələsinə xüsusi diqqətlə yanaşır. Prezident İlham Əliyevin tapşırığına əsasən, aidiyyəti dövlət qurumları qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalın Azərbaycana gətirilməsinə nail olub.

Məlumat verildi ki, “Bakı Tekstil Fabriki” MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi Sumqayıt Kimya Sənaye Parkının ərazisində müvafiq yerlə təmin edilib və ona Sənaye Parkının rezidenti statusu verilib. Bu status müəssisəyə sənaye parklarına tətbiq edilən güzəştlərdən faydalanmağa imkan yaradır. İstehsalçıya İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə 1,2 milyon manat güzəştli kredit verilib. Müəssisənin yaradılması üçün investisiya xərcləri 3,9 milyon manat təşkil edir. Tibbi maskaların qablaşdırılması üçün xüsusi qutular da yerli istehsaldır. Onlar Balaxanı Sənaye Parkının rezidenti olan müəssisədə hazırlanır. Tibbi maska istehsalı üçün Türkiyədən gətirilmiş müasir avadanlıq qısa müddətdə quraşdırılıb. Müəssisədə 30-dan çox yeni iş yeri yaradılıb. İstehsal prosesi üçnövbəlidir. Müəssisədə İSO beynəlxalq standartlarına uyğun xammaldan istifadə olunmaqla birinci mərhələdə hər gün 120 min tibbi maska istehsal ediləcək. Maskalar qablaşdırıldıqdan sonra xüsusi avadanlıqla əlavə olaraq sterilləşdiriləcək. Yaxın günlərdə daha bir istehsal xətti qurulacaq və ikinci mərhələdə istehsal həcmi 2 dəfə artırılaraq gündəlik istehsal 200-250 min tibbi maskaya çatdırılacaq. Müəssisənin məhsulları ilkin olaraq, daxili bazarda tələbatı ödəməyə yönəldiləcək.

*“İndi əsas məsələlərdən biri də odur ki, apteklərdə və digər ticarət yerlərində süni qiymət artımı olmasın. Çünki maska qıtlığı artıq süni qiymət artımına da gətirib çıxarmışdır və bəzi hallarda maskaları altdan satırdılar. Bu hallara qətiyyən yol verməmək olmaz və müvafiq dövlət qurumları çox ciddi nəzarət mexanizmi tətbiq etməlidirlər”*






Sonra dövlətimizin başçısına və birinci xanıma Azərbaycanda istehsal olunan tibbi spirt, dezinfeksiya məhsulları və qoruyucu vasitələr barədə məlumat verildi.

Onu da deyək ki, spirt məhsulunun qablaşdırılması və daşınması üçün müxtəlif həcmli qablar da yerli istehsaldır. Hazırda 6 şirkət isə dezinfeksiyaedici məhlullar istehsal edir.

Sonra STEAM-Azərbaycan layihəsi barədə məlumat verildi.

Qeyd edək ki, 2019-2020-ci tədris ilinin əvvəlindən Heydər Əliyev Fondunun dəstəyi ilə tətbiqinə başlanılan bu layihənin əsas məqsədi ümumtəhsil məktəblərində şagirdlərin müasir İKT avadanlıqlarından istifadə etmək qabiliyyətlərini genişləndirməkdir. Layihə çərçivəsində koronavirusdan qorunmaq üçün tibbi heyətin istifadəsi məqsədilə 3D printerlərlə çap olunan “üz siperi” maskası və bir çox tibbi cihaz və avadanlıqların müxtəlif detallarının sınaq istehsalına başlanılıb.

**Ardı Səh. 3**

# İlham Əliyev: Biz birlikdə güclüyük!

*“Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək!”*



Əvvəli Səh. 2

## “Əgər süni qiymət artımı olarsa, bu işdə əli olan şəxslər ciddi cəzalandırılacaq”

Hazırda gün ərzində 150 ədəd bu cür maska istehsal olunur. Müəssisə ilə tanışlıqdan sonra dövlətimizin başçısı Azərbaycan xalqına müraciət etdi.

**Prezident İlham Əliyevin müraciəti:**

-Bu gün ölkəmizdə tibbi maska istehsalı başlayır. Bu, çox əlamətdar hadisədir. Çünki indi dünyanın bir çox ölkələrində tibbi maska çatışmazlığı var, o cümlədən Azərbaycanda və biz bu sahədə daim idxaldan asılı idik. Amma indiki şəraiti nəzərə alaraq qısa müddətdə, cəmi iki həftə ərzində yerli istehsal təşkil edildi. Burada sahibkarların böyük rolu vardır, eyni zamanda, Azərbaycan dövləti də öz maliyyə dəstəyini göstərmişdir. Beləliklə, qısa müddət ərzində yeni müasir istehsalat sahəsi yaradılmışdır və bu, bizə imkan verəcək ki, özümüzü tibbi maskalarla böyük dərəcədə təmin edək.

Bildiyiniz kimi, koronavirusla mübarizədə maskalardan istifadə xüsusi əhəmiyyət daşıyır. Qeyd etdiyim kimi, indi dünyanın bir çox ölkələrində bu sahədə problemlər yaşanır. Azərbaycanda da qıtlıq yaranmışdır və bəzi hallarda apteklərdə tibbi maskalar yoxdur. Ona görə bu istehsal bizə imkan verəcək ki, özümüzü təmin edək və koronavirusla mübarizə başa çatandan sonra da Azərbaycan artıq idxaldan asılı olmayacaq.








Eyni zamanda, bu gün Azərbaycanda dezinfeksiya vasitələrinin istehsalı da təşkil edilib. Bu da qısa müddət ərzində ərsəyə gəlmiş bir məsələdir. Amma burada üstünlüyümüz ondan ibarət idi ki, ölkəmizdə bir neçə spirt zavodu var və bu spirt zavodlarında dezinfeksiya vasitələri istehsal edilməyə başlanmışdır və artıq satışa verilir. Beləliklə, mübarizəni daha da səmərəli şəkildə aparmaq üçün dəfələrlə qeyd olunub ki, vətəndaşlar daha da məsuliyyətli olmalıdırlar və şəxsi gigiyenasına fikir verməlidirlər. Ancaq bunu təmin etmək üçün vasitələr olmalıdır və bu gün bu vasitələr artıq bazara təqdim edilir - tibbi maskalar və dezinfeksiya vasitələri.

İndi əsas məsələlərdən biri də odur ki, apteklərdə və digər ticarət yerlərində süni qiymət artımı olmasın. Çünki maska qıtlığı artıq süni qiymət artımına da gətirib çıxarmışdır və bəzi hallarda maskaları altdan satırdılar. Bu hallara qətiyyən yol vermək olmaz və müvafiq dövlət qurumları çox ciddi nəzarət mexanizmi tətbiq etməlidirlər. Əgər süni qiymət artımı olarsa, bu işdə əli olan şəxslər ciddi cəzalandırılacaq. Çünki indiki pandemiya şəraitində belə addımlar xəyanət kimi qəbul ediləcək.

Tibbi maska və dezinfeksiya vasitələrinin istehsalı bir daha onu göstərir ki, Azərbaycanda yaradılmış infrastruktur imkan verir, biz qısa müddət ərzində lazım olan istehsalat sahələrinin təşkilində uğur qazana bilək. Təsadüfi deyil ki, bu istehsal müəssisəsi Sumqayıtda yerləşən Kimya Sənaye Parkının ərazisində təşkil edilib. Bu park mənim təşəbbüsümlə yaradılıb və artıq burada bir çox müəssisələr fəaliyyət göstərir. Bu müəssisələr bizim qeyri-neft iqtisadiyyatımıza da böyük töhfə verir. Eyni zamanda, mövcud kadr potensialı, sahibkarlar sinfinin inkişafı, dövlət və özəl sektorun tərəfdaşlığı, daim dövlət tərəfindən özəl sektora göstərilən dəstək - həm siyasi, həm maddi dəstək, güzəştli kreditlərin verilməsi, bütün bu amillər, yeni vəziyyətə gətirib çıxardı ki, biz vətəndaşlara lazım olan vasitələri qısa müddət ərzində operativ şəkildə istehsal edək və bazara təqdim edək. Mən onu bir daha qeyd etmək istəyirəm ki, hətta inkişaf etmiş ölkələrdə bu gün maska qıtlığı var. Bizdə alınmış yeni avadanlıq, - bu avadanlığın ikinci xəttinin də gətirilməsi nəzərdə tutulur, - imkan verir ki, avtomatlaşdırılmış rejimdə böyük həcmdə, böyük sayda maskalar istehsal olunsun.

Ona görə bugünkü tədbir xüsusi əhəmiyyət daşıyır. Mən son illər ərzində yüzlərlə, bəlkə də mindən çox sənaye müəssisəsinin açılışında iştirak etmişəm, ancaq bu istehsalat sahəsi xüsusi əhəmiyyət daşıyır. Çünki bu gün Azərbaycanda istehsal olunan tibbi maskalar və dezinfeksiya vasitələri insanlarımızı qoruyacaq. Bizim də əsas məqsədimiz ondan ibarətdir ki, insanlar bu xəstəliyə yoluxmasın, insanların sağlamlığı təmin edilsin və buna nail olmaq üçün bütün tədbirlər görülür.

Qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində Azərbaycanda hazırda koronavirus xəstəliyinin yayılması geniş vüsət almayıb. Dünyanın inkişaf etmiş ölkələrində gündə yüzlərlə insan vəfat edir və heç bir ölkənin səhiyyə sistemi bu artan xəstələrin müalicəsini tam təşkil edə bilmir.

**Ardı Səh. 4**

# İlham Əliyev: Biz birlikdə güclüyük!

*“Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək!”*



## Prezident İlham Əliyev 176 məhkumu əfv edib



Aprelin 6-da Prezident İlham Əliyev “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu Sərəncamı dünyada koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin ona ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq və humanizm prinsiplərinə əsaslanaraq imzalayıb.

Sərəncama əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş, yaşı 65-dən yuxarı 176 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib.

Əvvəli Səh. 3

Bu, bizim üçün də bir dərs olmalıdır. Ona görə Azərbaycanda qabaqlayıcı tədbirlərin görülməsi və vəziyyətə uyğun şəkildə bu addımların atılması bir məqsədi güdürdü ki, biz insanların həyatını, sağlamlığını qoruyaq və bu xəstəliyin Azərbaycanda geniş vüsət almasına imkan verməyək. Bu günə qədər görülmüş bütün tədbirlər öz səmərəsini verdi. Bircə onu demək kifayətdir ki, Azərbaycanda bu günə qədər 45 min test keçirilib. İndi müxtəlif internet resurslarında bütün ölkələrdə həm xəstələrin sayı, həm ölüm hallarının sayı, eyni zamanda, keçirilmiş testlərin sayı göstərilir. Hər bir insan o saytlara girib baxa bilər, Azərbaycan dünyada aparıcı ölkələrdəndir ki, bu qədər test keçirib. Bu, bizə imkan verdi ki, xəstəliyi müəyyən edək, xəstə insanlara operativ tibbi xidmət göstərək və eyni zamanda, özümüzü böyük bəladan qoruya bilək. Bu günə qədər biz buna müvəffəq olmuşuq. Eyni zamanda, operativ tədbirlərin görülməsi və vəziyyətə uyğun addımların atılması öz səmərəsini göstərmişdir. Aprelin 5-dən qüvvəyə minmiş yeni karantin qaydalarının bir məqsədi var ki, bu xəstəlik Azərbaycanda geniş yayılmasın. Aprelin 5-nə qədər vaxtaşırı qəbul edilmiş qərarlar və yeni qaydalar bu məqsədi daşıyır. Mən dəfələrlə bildirmişəm ki, biz həm milli birlik, həm həmrəylik nümayiş etdirmişik və məsuliyyət də nümayiş etdirməliyik. Amma indiki şəraitdə aprelin 5-dən sonra qüvvəyə minmiş qaydaları nəzərə alaraq vətəndaşlar nizam-intizam nümayiş etdirməlidirlər. Çünki bu qaydaları pozanlara qarşı ciddi tədbirlər nəzərdə tutulur və bu tədbirlər artıq təsbit edilib. Əminəm ki, vətəndaşlar bu qaydalara tam əməl edəcəklər və beləliklə, xəstəlik geniş vüsət almayacaq, biz bu vəziyyətdən az itkilərlə çıxa biləcəyik.

Eyni zamanda, onu da bildirməliyəm ki, hazırda 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə alırlar. Bu xəstəxanaların arasında bizim ən müasir xəstəxanamız - “Yeni klinika” da var. Bu klinika bu yaxınlarda - martın sonunda açılmışdır, orada 575 çarpayı nəzərdə tutulur. Nəzərə alsaq ki, klinika vaxtından əvvəl istifadəyə verilib, orada xəstələri qəbuletmə imkanları tədricən artacaq - ilkin mərhələdə 100 xəstə, sonra 300 və ondan sonra tam fəaliyyətə başlayacaq. Həmçinin bu il martın əvvəlində mənim iştirakımla bölgələrdə açılmış xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verildi. Qazax, Goranboy və Şəmkir şəhərlərində yerləşən ən müasir xəstəxanalar koronavirus xəstələrinin müalicəsi ilə məşğuldur. Bu üç xəstəxanada çarpayıların sayı təqribən 500 ətrafındadır. Beləliklə, cəmi bir ay ərzində mindən çox çarpayılıq, ən müasir standartlara uyğun tibbi müəssisələr istifadəyə verildi və orada koronavirus xəstələri müalicə alırlar.

Azərbaycan dövlətinin və sahibkarların operativ fəaliyyətini nəzərə alaraq, onu da bildirməliyəm ki, yaxın zamanlarda Bakıda və bir neçə bölgədə müasir xəstəxanaların yaradılması nəzərdə tutulur. Bu xəstəxanalar yeni texnologiyalar əsasında inşa ediləcəkdir. Bu texnologiyalar imkan verir ki, qısa müddətdə, bəlkə də üç həftə, bir ay ərzində xəstəxana tamamilə yenidən qurulsun, - yığma texnologiyalar prinsipi əsasında qurulacaq, - bütün lazımi avadanlıqla təchiz edilsin. Hər bir xəstəxananın çarpayı sayı 200-dür. Belə xəstəxanaların ölkəmizdə qısa müddətdə qurulması əlbəttə ki, bu mübarizədə bizə əlavə imkan verəcəkdir. Mübarizədə əsas məsələlərdən biri vaxt məsələsidir. Biz vaxtı nə qədər daraltsaq, nə qədər az vaxt çərçivəsində işləri görsək, xəstəliyə qarşı mübarizədə o qədər uğur qazana bilərik. Ona görə vaxt amili və əlbəttə, həkimlərin peşəkarlığı, bizim imkanlarımız, bütün bu amillərin vəhdəti bu gün imkan verir ki, Azərbaycan hələ də az itkilərlə bu vəziyyətdən çıxır. Ancaq əlbəttə, işlərin gələcək inkişafı göstərəcək ki, bizim sonrakı addımlarımız nədən ibarət olacaq. Hər halda bu ciddi karantin rejimi ayın 20-nə qədər qüvvədə qalacaq. Ondan sonra biz addımlarımızı yaranacaq vəziyyətə uyğun şəkildə atacağıq.

Onu da bildirməliyəm ki, xaricdə yaşayan və xaricdə olan Azərbaycan vətəndaşlarının ölkəmizə gətirilməsi istiqamətində atılan operativ addımlar nəticəsində böyük nailiyyətlər əldə edilib. Bu günə qədər 15 minə yaxın Azərbaycan vətəndaşı xarici ölkələrdən təxliyə edilib və onların böyük əksəriyyəti karantinə yerləşdirilib. Hazırda karantində qalan vətəndaşların sayı 4500-dür. Karantin üçün ən məqbul yerlər müəyyən edilib. Karantin rejimində olan ən çox insanların məkanı Atletlər kəndidir. Orada hazırda təqribən 1300 insan yerləşdirilib. Karantində olan vətəndaşlar, eyni zamanda, Bakı şəhərində və bölgələrdə 4-5 ulduzlu otellərdə, istirahət zonalarında, bəzi dövlət qurumlarının istirahət mərkəzlərində yerləşdirilir. Onlara gündəlik yemək verilir, onlar tibbi müayinədən keçirlər. Onların mütləq əksəriyyəti yaradılmış vəziyyətdən çox razıdırlar, dövlətə və həkimlərə minnətdarlıqlarını bildirirlər.

Bir sözlə, Azərbaycan dövləti bu ciddi vəziyyətlə üzləşərək yenə də öz gücünü göstərdi. Onu göstərdi ki, bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır. Buna nail olmaq üçün istənilən addımların atılması mümkündür və biz bunu edirik. Operativ tədbirlər nəticəsində imkan vermədik ki, bu bəla ölkədə geniş vüsət alsın. Ancaq bizim gələcək uğurumuz bundan sonra böyük dərəcədə insanların hərəkətlərindən asılı olacaq. Dövlət nə mümkünsə onu edib. Bu gün sərtləşdirilmiş, məhdudlaşdırıcı tədbirlər qüvvədədir. İnsanlar məsuliyyətli olmalıdırlar, özlərini, yaxınlarını, ailə üzvlərini qorumalıdırlar. Necə ki, biz birlik, həmrəylik göstəririk, eyni tərzdə məsuliyyət və nizam-intizam göstərməliyik.

Onu da bildirməliyəm ki, koronavirus xəstəliyi dünya iqtisadiyyatına böyük problem yaratdı, bunu artıq dünyanın aparıcı maliyyə qurumlarının rəhbərləri qeyd edirlər. O cümlədən Beynəlxalq Valyuta Fondu artıq qeyd edib ki, koronavirusun yaradacağı böhran 2008-2009-cu illərin böhranından daha ağır olacaq.

Azərbaycana gəldikdə, - üstəgəl neftin qiyməti demək olar ki, iki dəfədən çox düşmüşdür, - koronavirus xəstəliyi bir çox iqtisadi və xidmət sahələrinə mənfi təsir göstərir, ancaq buna baxmayaraq, o sahələrdə çalışan insanların problemləri nəzərə alınıb. Mənim göstərişimlə yaradılmış dörd işçi qrupu öz işini demək olar ki, böyük dərəcədə yekunlaşdırıb. Mənə məruzə edilib və göstəriş əsasında Nazirlər Kabineti artıq Tədbirlər Planını təsdiq edib. İlkin mərhələdə nəzərdə tutulurdu ki, bu məqsədlər üçün təqribən 1 milyard manat vəsait ayrılsın. Ancaq sonra əlavə hesablamalar bunun kifayət etməyəcəyini göstərdi və ən azı 2,5 milyard manat ayrılacaq ki, Azərbaycanda həm iqtisadi sabitlik təmin edilsin, məşğulluqla bağlı problemlər öz həllini tapsın və həm də bizim makroiqtisadi və maliyyə vəziyyətimiz sabit olsun.

Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, 600 min insan bu vəziyyətdən daha çox əziyyət çəkir, çünki orada iş yerləri bağlanıb. Sahibkarlara mənim çağırışım, birmənalı tələbim artıq hər kəsə bəllidir ki, bu dövrdə heç bir ixtisara getmək olmaz, ancaq biz sahibkarlara da imkan yaratmalıyıq ki, onlar da əziyyət çəkməsinlər. Azərbaycan 600 min işçini, o cümlədən fərdi sahibkarı dövlət hesabına maliyyələşdirəcək. Onların əməkhaqlarının əhəmiyyətli hissəsini dövlət öz üzərinə götürüb və artıq bu ödəmələr başlayır. O cümlədən tələbələrin problemləri, işsizlərə verilən müavinətin həcmi - bütün bunlar nəzərə alınır və 2,5 milyard manat bu məqsədlər üçün nəzərdə tutulub. Bu, çox böyük rəqəmdir. Bir daha demək istəyirəm ki, neft gəlirlərimiz azalıb, ancaq insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür. Biz bunu bir daha nümayiş etdiririk. Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük! Sağ olun.

X X X

Azərbaycanda tibbi maska istehsalına başlanılması bir çox mühüm məqamları özündə ehtiva edir. İlk növbədə, bu addım Prezident İlham Əliyevin əhalinin sağlamlığının qorunması məsələsinə nə dərəcədə diqqətlə və həssas yanaşmasını göstərir və sübut edir ki, Azərbaycanda dövlət tərəfindən bu istiqamətdə konkret və ardıcıl tədbirlər görülür. Bundan başqa, bu müəssisənin fəaliyyətə başlaması Azərbaycanda qeyri-neft sektorunun inkişafının göstəricisi olmaqla yanaşı, eyni zamanda, idxaldan asılılığı azaltmaq, daxili tələbatı ödəmək məqsədilə yerli istehsalı genişləndirmək istiqamətində son illərdə həyata keçirilən işlərin ardıcıl xarakter aldığını nümayiş etdirir.

## Əli Əhmədov: "Hər kəsin vətəndaş mövqeyini və şəxsi məsuliyyətini ortaya qoyması zamanıdır"



"Koronavirus pandemiyasının bir sıra ölkələr üzrə statistikası insanı dəhşətə gətirir. Vəziyyət təsəvvür edildiyindən qat-qat ciddidir. Azərbaycan hökuməti virusa yoluxmaların qarşısının alınması və yoluxanların müalicəsi üçün Prezident İlham Əliyevin tapşırığı ilə və bilavasitə nəzarəti altında mümkün olan bütün qabaqlayıcı tədbirləri görür və bundan sonra da görəcək. Lakin təhlükəli virusun yayılmasının və böyük faciələrə gətirib çıxarmasının qarşısının alınmasında hamının və hər kəsin iştirakı həyati əhəmiyyət kəsb etməyə başlayıb". SİA-nın verdiyi məlumata görə, bu sətirlər Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovun rəsmi facebook səhifəsində yayımladığı "Hər kəsin vətəndaş mövqeyini və şəxsi məsuliyyətini ortaya qoyması zamanıdır" sərlövhəli məqaləsində yer alıb.

Əli Əhmədov daha sonra qeyd edib: "Acı reallıqlarla və tükürpədən faciələrlə üz-üzə qalmış ölkələrin təcrübəsi göstərir ki, ayrılıqda götürülmüş fərdin sağlamlığı hamının, bütün cəmiyyətin sağlamlığı dərəcəsinə yüksəlib. Hər kəsin şəxsi məsuliyyət dərəcəsi heç zaman olmadığı qədər əhəmiyyət və dəyər kəsb etməyə başlayıb. Amansız virusun törətdiyi insan faciələri qarşısında aciz qalan ölkələrin acı təcrübəsi hər birimizə ibrət dərsi olmalıdır. Hər kəsin vətəndaş mövqeyini və şəxsi məsuliyyətini ortaya qoyması zamanıdır. Söhbət nə qədər şəxsi sağlamlığından, yaxınların sağlamlığından gedirsə, o qədər də dövlət və milli maraqlardan gedir".

Baş nazirin müavini Əli Əhmədov fikirlərini belə yekunlaşdırmışdır: "İndiki həssas anlarda şəxsi məsuliyyət, birlik və həmrəylik anlayışları mahiyyət etibarilə çox sadə düstura malikdir: evdə qal, özünü virusa yoluxdurma, ata-ananı, övladlarını və nəvələrini virusa yoluxdurub təhlükə altına atma. Bu sadə, lakin həyati məna daşıyan tələblərə biganəlik göstərilməsi acı nəticələrə gətirən, bağışlanmaz səhv və günah olardı. Gəlin bağışlanmaz səhv etməyək, günaha batmayaq. Həm özümüzü və yaxınlarımızı, həm də xalqımızı dəhşətli faciələrdən birlikdə qoruyaq. Gəlin qarşıdakı üç həftədə "EVDƏ QAL" şüarını gələcəyimiz naminə həyat tərzimizə çevirək. Buna hər birimizin, bizim sevdiklərimizin və bizi sevənlərin çox, lap çox ehtiyacı var".

## "Vətəndaşlara birdəfəlik ödəmənin verilməsi ilə bağlı mexanizm hazırlanır"



Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planında işsiz kimi qeydiyyata alınan şəxslərə aprel-may aylarında hər ay üçün yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub. Bu barədə SİA-ya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib. İşsiz kimi qeydiyyata alınmaq və ya birdəfəlik ödəməni (190 manat) almaq üçün karantin rejimini pozub evdən çıxaraq Məşğulluq Mərkəzlərinə müraciət etmələrinə heç bir ehtiyac yoxdur. Xüsusi karantin rejimi ilə əlaqədar hazırda mərkəzlərdə vətəndaş qəbulu da həyata keçirilmir.

Eyni zamanda, işsiz şəxslərin qeydiyyatı yalnız elektron qaydada aparılır. Belə ki, işsiz şəxs qeydiyyata alınması üçün www.e-sosial.az portalına daxil olaraq "e-xidmətlər" bölməsindən "Vətəndaşların işaxtaran və işsiz kimi qeydiyyata alınması, qeydiyyatdan müvəqqəti çıxarılması və qeydiyyatın ləğv edilməsi" xidmətini seçməlidir. Birdəfəlik ödəmənin verilməsində ünvanlılıq prinsipi, şəxsin ailə gəlirləri nəzərə alınacaq. Bununla bağlı mexanizm hazırlanır. Bu proses yaxın günlərdə başa çatdıqdan sonra birdəfəlik ödəmə vəsaitləri işsizlərə nağdsız qaydada (bank xidmətləri vasitəsilə) ödəniləcək.

Bir daha işsiz şəxslərə birdəfəlik ödəməni almaq və ya işsiz kimi qeydiyyata alınmaq üçün Məşğulluq Mərkəzlərinə müraciət etməmələrini, bunun üçün evdən çıxaraq xüsusi karantin rejimini pozmamalarını tövsiyə edirik.

## Daha 57 nəfər koronavirusa yoluxub



Azərbaycanda 57 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, həmin şəxslər xüsusi rejimli xəstəxanalara yerləşdirilib. Bu barədə SİA-ya Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib. Eyni zamanda, koronavirus infeksiyasına yoluxmuş 12 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Ümumilikdə, ötən dövr ərzində ölkəmizdə koronavirus infeksiyasına yoluxmuş 641 şəxsdən 44 nəfəri müalicə olunaraq sağalıb, 7 nəfər vəfat etmiş, 590 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Onlardan 11 nəfərin vəziyyəti ağır, 17 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ölkəmizdə müxtəlif karantin zonalarına yerləşdirilən 4369 nəfərin müayinəsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 45 mindən artıq test aparılıb.

## Adil Əliyev: "Ölkə Prezidentinin göstərişi ilə çox vacib olan daha bir məsələ çox qısa zamanda həllini tapdı"



Ölkə Prezidentinin göstərişi ilə Azərbaycanımız üçün çox vacib olan daha bir məsələ çox qısa zamanda həllini tapdı. Trend-in məlumatına görə, bunu Milli Məclisin vitse-spikeri Adil Əliyev bildirib.

Onun sözlərinə görə, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə müxtəlif istiqamətlərdə genişmiqyaslı islahatlar aparılır. Təbii ki, bu islahatların içərisində iqtisadiyyatın inkişaf etdirilməsi çox mühüm yer tutur:

"Belə ki, Dünya Bankının "Doing business" hesabatlarında ölkəmiz biznes mühitinin yaxşılaşdığı qabaqcıl ölkələr sırasında yer alır. Lakin son dövrlər dünyada geniş yayılmış koronavirus (Covid-19) infeksiyası, təəssüflər olsun ki, görülən bütün qabaqlayıcı tədbirlərə baxmayaraq ölkəmizdən də yan keçməyib. Hazırda fövqəldövlətlər qeyd olunan xəstəliyin əlində acizdir, yoluxan və ölənlərin sayı narahatedicidir. Bunlara baxmayaraq, cənab Prezident tərəfindən qabaqlayıcı tədbirlərin görülməsi, vəziyyətə uyğun şəkildə zəruri addımların atılması nəticəsində xəstəliyin Azərbaycanda geniş vüsət almasına imkan verilmədi və hazırda bu siyasətin nəticəsi kimi vəziyyət nəzarət altındadır.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Qebreyesus dünya liderlərinə ünvanlandığı məktubda koronovirus pandemiyasının təsirinin və miqyasının məhdudlaşdırılması istiqamətində Azərbaycan Prezidentinin yürütdüyü siyasəti və görülən işləri təqdir edərək, ölkəmizin təcrübəsini örnək göstərib".

Adil Əliyev bildirib ki, əhalinin sağlamlığının təmin olunması məsələsinə xüsusi diqqətlə yanaşıldığı üçün hələ iki həftə əvvəl ölkəmizdə tibbi maska istehsalına başlanılması üçün cənab Prezident tərəfindən birbaşa göstəriş verilib: "Bu məsələ ilə əlaqədar aidiyyəti dövlət qurumları qısa müddətdə sahibkarlara kreditlər verib, nəticədə tibbi maska istehsalı ilə bağlı avadanlığın və xammalın Azərbaycana çox qısa zamanda gətirilməsinə nail olunub.

Uzaq görən siyasətin və aparılan iqtisadi islahatların məntiqi davamı olaraq, bu gün Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı oldu. Beləliklə, koronavirusla mübarizədə dünyanın bir çox ölkələrində tibbi ləvazimatlarla bağlı yaranan problemlər artıq ölkəmizdə öz müsbət həllini tapır.

Yeni açılan müəssisədə İSO beynəlxalq standartlarına uyğun xammaldan istifadə olunmaqla birinci mərhələdə hər gün 120 min tibbi maska istehsal edilməsi nəzərdə tutulub. Yaxın günlərdə isə istehsal həcminin 2 dəfə artırılaraq, gündəlik istehsalın 200-250 min tibbi maskaya çatdırılması nəzərdə tutulur. Bu, o deməkdir ki, artıq ölkəmiz tibbi ləvazimatları idxal edən yox, istehsal edən ölkəyə çevrilir. Yeni yaradılan müəssisə həm steril maskaların, həm də N95 və digər xüsusi növlərdən olan maskaların istehsal edilməsi üçün nəzərdə tutulub. İki həftə ərzində günlük 250 min tibbi maska hazırlaya biləcək müəssisənin qurulması və istehsala başlanılması ölkəmizin iqtisadi qüdrətinin əyani sübutudur".

Vitse-spiker əlavə edib: "Sevindirici haldır ki, maskaların hazırlanmasında, istifadə olunacaq spirt və digər dezinfeksiyaedici mayelərin istehsalı ilə hazırda ölkəmizdə müxtəlif istehsalat müəssisələri məşğul olur. Bu gün ölkəmizdə yaradılmış şərait imkan verir ki, tibbi maska və dezinfeksiya vasitələrinin istehsal sahələrinin təşkilində çox qısa zamanda uğur qazanaq. Bu həm də, dövlətin özəl sektora qayğısının, dövlət və özəl sektorun tərəfdaşlığının, dövlətin özəl sektorun inkişafı istiqamətində atmış olduğu addımların məntiqi nəticəsidir.

Xatırlatmaq istərdim ki, Sumqayıt Kimya Sənaye Parkı da cənab Prezidentin təşəbbüsüylə yaranmış və burada məqsəd qeyri-neft sektorunun inkişaf etdirilməsi, daxili bazarın idxaldan asılılığının aradan qaldırılması, sahibkarlığın inkişafına şərait yaradılması ilə bağlı olub. Dövlətimizin əsas məqsədi ondan ibarətdir ki, insanlar xəstəliyə yoluxmasın, onların sağlamlığı təmin edilsin və buna nail olmaq üçün bütün tədbirlər görülür. Eyni zamanda vətəndaşlar daha da məsuliyyətli olmalı və şəxsi gigiyenalarına fikir verməli, özlərini və yaxınlarını bu xəstəliyə yoluxmaqdan qorumalıdırlar".

## Qoşulmama Hərəkatına üzv ölkələr Dağlıq Qarabağda keçirilmiş qondarma "seçkilər"i tanımır

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosu Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində təşkil olunmuş qondarma "seçkilər"lə bağlı açıqlama yayıb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, BMT-dən sonra ikinci ən böyük siyasi platforma olan və 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı ərazilərin güc yolu ilə əldə edilməsinin yolverilməz olduğunu vurğulayaraq, Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyətin heç bir ölkə tərəfindən qanuni tanınmayacağını bəyan edib.

Bununla əlaqədar olaraq, Qoşulmama Hərəkatının üzv ölkələri martın 31-də Azərbaycanın Dağlıq Qarabağ bölgəsində keçirilmiş qondarma "seçkilər"i tanımadıqlarını və qanunsuz hesab etdiklərini bildiriblər.

Sonda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosu Bakı Zirvə Görüşünün Yekun sənədinin 662-ci paraqrafına istinad edərək, Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə, Ermənistan və Azərbaycan arasında münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinə dəstəyini bir daha ifadə edib.

## Paşinyan Putinə niyə zəng edib?



Rusiya Prezidenti Vladimir Putinlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında telefon danışığı baş tutub. Bu məlumatı Kremlin mətbuat xidməti yayıb. Ermənistan tərəfinin təşəbbüsü ilə baş tutan telefon danışığı zamanı əsas müzakirə mövzusu koronavirusla mübarizə olub. Paşinyan Rusiyanın etdiyi yardıma görə Putinə təşəkkür edib.

# “Milli Şura”nın bəyanatı radikalların xalqla ayrı düşüncədə olmasından xəbər verir”

*Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynlinin SİA-ya müsahibəsi*

***- Əli müəllim, qondarma “Milli Şura” belə bir iddia ilə çıxış edib ki, guya Azərbaycan hakimiyyəti koronavirus pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkəmizdə tətbiq olunan ciddi karantin rejimindən siyasi rəqiblərinə qarşı istifadə edir. Siz bununla bağlı nə deyə bilərsiniz?***



- Elə “Milli şura”nın bəyanatı və bəyanatın məzmunu bir daha onu göstərir ki, cənab Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində özünü radikal müxalifət adlandıran bu qrupun fəaliyyəti ilə bağlı proqnozlarında tam haqlı olmuşdur. Azərbaycan dövlətinin və Azərbaycan xalqının tamamilə bu qlobal pandemiyaya qarşı səfərbər olduğu, bütün cəmiyyətin bu həssas məsələdə birlik nümayiş etdirdiyi bir vaxtda belə bir bəyanatın qəbulu, belə bir davranış yalnız təxribat kimi qiymətləndirilə bilər və hesab edirik ki, Azərbaycan ictimai fikri də məsələni məhz bu cür dəyərləndirir. Əgər xatırlayırsınızsa, biz bir müddət əvvəl bəzi beynəlxalq təşkilatlar tərəfindən səsləndirilən qərəzli və qeyri-obyektiv bəyanatlarda bunun cücərtilərini gördük. İndi Azərbaycandakı “beşinci kolon” bunu icra etməkdədir.

***- “Milli Şura” bir sıra şəxslərin məhz bu dövrdə həbs olunması ilə bağlı iddialarla çıxış edir, buna siyasi don geyindirməyə çalışır. Bunu necə dəyərləndirirsiniz?***

- Onların səsləndirdikləri bu fikirlər təəccüb və ikrah hissi yaradır. Bilirsiniz ki, koronavirus epidemiyasının yayılmasının qarşısının alınması məqsədilə inzibati və cinayət qanunvericiliyimizə də dəyişiklik olundu. Bütün Azərbaycan vətəndaşlarına vaxtında və operativ şəkildə bu dəyişikliklər haqqında məlumat verilib və ictimaiyyət bu məsələlər haqqında tam məlumatlıdır. Hamı bilir ki, biz hazırda tamamilə fərqli bir hüquqi rejimdə yaşayırıq. Bu dövr ərzində Azərbaycanda karantin rejimi qaydalarını pozmalarına görə, 3 cinayət işi üzrə 5 nəfər haqqında həbs qəti-imkan tədbiri seçilib, 75 nəfər inzibati qaydada həbs edilib, 18767 nəfərə inzibati qaydada cərimə tətbiq edilib, 475 nəfərə isə xəbərdarlıq edilib. Onların sırasında iddia olunan bir neçə nəfərin olmasının siyasiləşdirilməsi qeyd etdiyimiz rəqəmlərin fonunda çox məntiqsiz görünür. Bu baxımdan müvafiq qurumlar tərəfindən həyata keçirilən hüquqi tədbirlərin siyasiləşdirilməsinin heç bir əsası yoxdur. Azərbaycan hüquqi dövlətdir və ölkəmizdə hüququn aliliyi tam təmin olunur. Əgər kiminsə əməllərində, fəaliyyətində qanun pozuntusu varsa, qanunsuzluğa yol verirsə, o da mütləq şəkildə qanun qarşısında cavab verməlidir.

Əlbəttə ki, Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt anti-Azərbaycan qüvvələrə, beşinci kolon təmsilçilərinə vəziyyətdən istifadə edib hansısa təxribat törətməyə imkan verməyəcək. “Milli Şura”nın qəbul etdiyi bu bəyanat isə bir daha belə bir çətin dövrdə radikal ünsürlərin Azərbaycan xalqı ilə ayrı düşüncədə olmasından xəbər verir.

***Nailə Məhərrəmova***

# Bəhruz Quliyev: “Azərbaycanda koronavirusla mübarizə üsulu intensiv xarakter alıb”

***Azərbaycanda koronavirusla mübarizə üsulu intensiv xarakterə keçid alıb və bu, ilk növbədə itkilərin az olması üçündür. SİA-nın xəbərinə görə, bunu Trend-ə açıqlamasında “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzu ilə bağlı fikirlərini şərh edərkən deyib.***



Onun sözlərinə görə, hələ virusun yayılma prosesi başlayan ilk gündən Azərbaycan dövləti vətəndaşların sağlamlıqlarının qorunması, virusdan yoluxma hallarının minimum olması istiqamətində vacib və təxirəsalınmaz işlərə start verdi: “Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın fasiləsiz iş rejimi, eyni zamanda Prezident İlham Əliyevin xalqa davamlı müraciətləri dövlətin sözügedən istiqamətdə ardıcıl iş aparmasının məntiqi nəticəsidir. Əgər ilkin vaxtlar ölkədə gündə cəmi 200-300 test keçirilirdisə, indi müayinələrin sayı mindən çoxdur. Hazırda ölkədə 35 mindən artıq test keçirilib. Həmçinin, yoluxma hallarını müəyyənləşdirmək üçün imkanlar artıb. Azərbaycan yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alıb. Bütün bunların hər biri əsas amilə söykənir - vətəndaş məsuliyyəti və həmrəy şəkildə COVID-19-a qarşı mübarizə aparmaq”.

Siyasi ekspertə görə, dövlətin əlindən gələni etməsi, vətəndaşların qorunması üçün bütün imkanlardan maksimum istifadəsi bəzi etinasız, məsuliyyətsiz şəxslər tərəfindən diqqətə alınmır: “Halbuki, peşəkar virusoloqlar, infeksionist həkimlər, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının aparıcı mütəxəssisləri koronavirusdan qorunmaq üçün ən sadə yolları ictimaiyyətə açıqlayırlar. Baxın, adi bir məsuliyyətsizlik arzuolunmaz nəticələrə, ölüm hallarına yol açır. Bu, həqiqətən də çox təəssüfedici, deyərdim ki, kədərləndirici bir haldır. Fakt isə budur: əgər tələb edilən qaydalara riayət olunmasa, İtaliyada, İspaniyada, ABŞ-da və s. ölkələrdəki kimi, böyük itkilər qaçılmaz olacaq. Xarici ölkələrdə baş verən kütləvi ölüm faktları bu gün məsuliyyətsiz davranan insanlara dərs olmalıdır. Bələləri anlamalıdırlar ki, onların karantin rejiminin xüsusi qaydalarına əməl etməmələri özləri ilə yanaşı, digər insanların, o cümlədən ailələrinin, uşaqlarının da həyatlarını itirmələri ilə nəticələnəcək. Bütün bunları yaşamamaq üçün insanlarımızı daha məsuliyyətli olmağa dəvət edir, koronavirusa qarşı mübarizədə birgə qələbə qazanmağa çağırıram”.

B.Quliyev əlavə edib ki, bu gün Azərbaycanda kifayət qədər peşəkar, öz işini ən yüksək səviyyədə görən həkimlərimiz var və dövlət onların bu mübarizədə işlərini daha fəal aparmaları üçün hər cür imkan yaradıb: “Bu baxımdan, vətəndaşlarımız dövlətin, həkimlərin işlərini qanunlara tabe olmaqla, tələb edilən tələblərə riayət etməklə qiymətləndirə, o cümlədən, dövlətə də dəstək ola bilərlər”.

# Səfir: Azərbaycan-Rusiya əlaqələri bütün sahələrdə strateji tərəfdaşlıq xarakteri daşıyır

***Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 28-ci ildönümü ilə əlaqədar TASS agentliyinə müsahibə verib.***

AZƏRTAC xəbər verir ki, səfir Azərbaycan ilə Rusiya arasında əlaqələrin yeni səviyyəyə qalxdığını, bütün sahələrdə strateji əməkdaşlıq xarakteri daşıdığını bildirib. O, Azərbaycan ilə Rusiya arasında münasibətlərin iki ölkə liderlərinin qarşılıqlı etimadına və dostluq əlaqələrinə əsaslandığını vurğulayıb. P.Bülbüloğlu ötən il Prezident İlham Əliyevin “Valday” Klubunun 16-cı illik plenar iclasındakı tarixi çıxışını, Birinci vitse-prezident Mehriban Əliyevanın Rusiyaya yüksək səviyyəli rəsmi səfərini xatırladıb. Diplomat siyasi, iqtisadi, humanitar sahələrdə qarşılıqlı əlaqələrimizin inkişaf dinamikası barədə məlumat verib. Səfir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində BMT Təhlükəsizlik Şurasının daimi üzvü və ATƏT-in Minsk qrupunun üzvü kimi Rusiyaya ümidlər bəslədiyini diqqətə çatdırıb.



## Sədaqət Vəliyeva: “Prezidentin Əfv Sərəncamı böyük sosial mahiyyət kəsb edir”



Prezident İlham Əliyevin dünyada koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin ona ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq imzaladığı Əfv Sərəncamı bir daha sübut edir ki, dövlət humanizm prinsiplərinə və dəyərlərinə böyük önəm verir.

Bunu Trend-ə açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib. Sədaqət Vəliyeva bildirib ki, sərəncama əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş, yaşı 65-dən yuxarı 176 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib:

“Əminəm ki, Prezident İlham Əliyevin imzaladığı Sərəncam böyük sevinclə qarşılanıb. Dövlətimizin başçısının bu humanist addımı bir çox ailələrə xoşbəxtlik və sevinc bəxş edib”.

Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Sərəncamın böyük sosial mahiyyət kəsb etdiyini vurğulayan Sədaqət Vəliyeva qeyd edib ki, dövlətimizin başçısının bu qərarı məhkumların kimliyinə, törətdiyi cinayətə görə ayrı-seçkilik olmadan yaşı 65-i keçmiş insanların sağlamlığının qorunması üçün verilib:

“Prezident İlham Əliyev əfv olunan insanların sağlamlığını qorumaq, onları virusa yoluxmaqdan uzaq tutmaq, onlara ev şəraitində xidmətlərin göstərilməsini təmin etmək üçün belə bir addım atdı. Bu, təkcə cinayət törətmiş şəxslərə qarşı humanizm addımı deyildi, həm də insanlığa verilən dəyər idi. Bu Sərəncam bir daha onu göstərir ki, dövlət siyasətinin mərkəzində insan amili durur və Prezident İlham Əliyev üçün insanların sağlamlığı, təhlükəsiz həyatı bütün məsələlərdən öndə durur”.

## Qərargah: “Bəzi KİV xüsusi karantin rejimi qaydalarını pozaraq saxta vəsiqələr verir”

Azərbaycan Respublikasında tətbiq olunmuş xüsusi karantin rejimi əhalinin sağlamlığının qorunması və ölkənin təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyır. Nazirlər Kabineti yanında Operativ Qərargahdan APA-ya bildirilib ki, tətbiq olunmuş qaydaların, o cümlədən hərəkət məhdudiyyətinin vətəndaşlar tərəfindən icra olunması təqdirəlayiq hal kimi qiymətləndirilir.



“Buna baxmayaraq, xüsusi karantin rejimi qaydalarının pozulmasına cəhdlər də müşahidə olunur. Fəaliyyətinə icazə verilən bəzi hüquqi və fiziki şəxslər kənar vətəndaşların adlarını icaze.gov.az portalına daxil etməklə, həmçinin bir sıra kütləvi informasiya vasitələri əməkdaşları olmayan ayrı-ayrı şəxslərə saxta vəsiqələr verməklə onların maneəsiz hərəkətinə şərait yaradır və xüsusi karantin rejiminin tələblərini kobud şəkildə pozurlar”, - deyə məlumatda bildirilib.

Operativ Qərargah xəbərdarlıq edir ki, xüsusi karantin rejiminin tətbiqinə nəzarət edən aidiyyəti qurumlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Əmək müqaviləsi bildirişi” elektron sisteminə müraciət etməklə istənilən şəxsin əmək fəaliyyəti barədə müvafiq məlumat əldə etmək imkanına malikdirlər.

Vətəndaşın elektron sistemdə əmək müqaviləsinin olmadığı təqdirdə, yanlış məlumatı icaze.gov.az portalına daxil edən və ya saxta sənədi verən qurum və ondan istifadə edərək xüsusi karantin rejimini pozan şəxslər barədə qanunvericiliyə uyğun olaraq ölçü götürüləcək.

## "Koronavirusla bağlı vəziyyət dövlət başçısının ciddi nəzarətindədir"



"Bu günə olan məlumata görə, Azərbaycanda koronavirusa yoluxanların sayı 584 nəfərdir. Göründüyü kimi, son günlər ölkəmizdə koronavirus infeksiyasına yoluxma halları artır və sosial şəbəkələrdə də bununla bağlı geniş müzakirələr aparılır, müxtəlif suallar ortaya çıxır". Bu fikri SİA-ya Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycanda infeksiyaya yoluxmanın sayının məhz indi artmasının bir sıra səbəbləri var: "Yaddan çıxarmayaq ki, ilkin dövrdə infeksiya faktları müəyyən olunanda Azərbaycan yalnız Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) məhdud şəkildə testlər alırdı və həmin dövrdə mövcud imkanlar çərçivəsində müayinələr aparılırdı. Sonrakı dövrdə ölkəmiz artıq özü kifayət qədər testlər almağa başladı. Əgər ilkin vaxtlarda ölkədə gündə cəmi 200-300 test keçirilirdisə, indi gündəlik müayinələrin sayı mindən çoxdur. Bu günədək ölkədə 50 minə qədər test keçirilib. İmkanların genişlənməsi yoluxma hallarını müəyyənləşdirmək üçün imkanları artırıb. Həmçinin Azərbaycan yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar almaqdadır. O da faktdır ki, xaricdən gələn və karantinə yerləşdirilən şəxslərlə bağlı bir neçə mərhələdə test aparılır. Son bir həftə ərzində keçirilən testlər xaricdən gələn çoxlu sayda insanda yoluxma faktını təsdiq edir. Bu baxımdan təsadüfi deyil ki, məhz ilkin dövrlərdə infeksiya yalnız xaricdən gələn şəxslərdə aşkarlanırdı. İndi isə həm də ölkə daxilində insanların biri-birini yoluxdurması halları qeydə alınır."

"ÜST-ün məlumatına görə, indiyədək Ermənistanda 833 yoluxma və 8 ölüm faktı qeydə alınıb. Əhalisinin sayı və ərazisi Azərbaycandan xeyli kiçik olan işğalçı Ermənistanda yoluxma hallarının yüksək olması bu ölkədə testin az aparılması ilə birbaşa bağlıdır. Məsələ burasındadır ki, Ermənistanda indiyədək Azərbaycanla müqayisədə 5 dəfəyə yaxın az, yəni cəmi 7994 test aparılıb. Gürcüstanda isə yoluxmaların sayı 188 nəfər təşkil edir, lakin 2 ölüm halı qeydə alınıb" deyən Vüqar Rəhimzadə əlavə edib ki, dünya təcrübəsinə gəldikdə Avropada, xüsusən İtaliya və İspaniyada yoluxma halları və ölüm faktları yüksələn xətt üzrə inkişaf edəndə bu qitənin bir çox ölkəsində nisbi sakitlik hökm sürürdü. İndi isə koronavirus Avropanın çoxlu sayda ölkəsində tüğyan edir: "Avropa ilə müqayisədə ABŞ-da pandemiyanın yayılma və ölüm halları gec başladı, indi isə bu ölkə az qala koronavirus pandemiyasının əsarəti altındadır. Bir sözlə, regionun və dünyanın təcrübəsi göstərir ki, infeksiyanın sürətlə yayılması və pik həddə doğru hərəkət etməsi bir çox obyektiv və subyektiv amillərlə bağlıdır. Hər bir ölkə və region üçün bu hal spesifikdir".

Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycanda koronavirusla bağlı vəziyyət dövlət başçısının ciddi nəzarətdədir: "Koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə ölkəmizdə bütün zəruri addımlar atılır və tətbiq olunan xüsusi karantin rejimi də vətəndaşlarımızın sağlamlığının qorunmasına xidmət edir. Lakin hər bir vətəndaşın borcudur ki, karantin rejiminin qaydalarına və tələblərinə tam şəkildə riayət etsin. Hər bir vətəndaş belə bir çətin vəziyyətdə məsuliyyətini dərindən dərk etməli, qəbul olunan qaydalara, verilən tövsiyələrə ciddi riayət olunmalı, məsələyə həssas yanaşılmalıdır. Artıq bütün dünyada koronavirus epidemiyasının tüğyan etdiyi indiki məqamda bir şəxsin məsuliyyətsizliyi nəticəsində ətrafdakı onlarla insan virusa yoluxma təhlükəsi ilə üz-üzə qala bilər. Bu gün koronavirusun yayıldığı hər bir ölkə real təhlükə mərhələsinə qədəm qoyub, yoluxma və ölümlərin sayı durmadan artır və bundan sonra da çoxalacağı ehtimal olunur. Buna görə də vətəndaşlar nəzərə almalıdırlar ki, hər dəfə evdənçıxma, hər bir kənar şəxslə təmas infeksiyaya yoluxma və ölüm təhlükəsi deməkdir. Bu səbəbdən də vətəndaşlar məsuliyyətlə davranmalı, qaydalara ciddi əməl etməklə həm özlərini, həm də yaxınlarını xəstəlikdən qorumalı və ətrafdakıları risk altına qoymamalıdırlar".

***Ceyhun Rasimoğlu***

## Koronavirusdan qorunmaq üçün əməl edəcəyimiz gigiyenik QAYDALAR

Mütəxəssislərin bəziləri koronavirusa yoluxma zamanı qızdırma, öskürək, halsızlıq, baş ağrısı və digər simptomların olduğunu desələr də, bəzi həkimlər heç bir simptom olmadan da virusa yoluxmanın mövcud olduğunu bildirirlər. Orqanizmdən fərqli olaraq xəstəlik yüngün və ya ağır şəkildə irəliləyə bilir. Tibdə buna yoluxmanın assimptomatik gediş deyilir. Heç bir siptomlara malik olmayan virus daşıyıcıları tez bir zamanda sağalır, hətta bəzən belə şəxslərin ümumiyyətlə müalicə alınmadan da sağaldığı bildirilir. Bu da o deməkdir ki, koronavirusla bağlı hər birimiz risk qrupundayıq. Belə olan halda, özümüzü necə qorumalıyıq?





Tədqiqatçıların fikrincə, xəstəliyə yoluxmuş şəxs asqırdığı zaman damcı havada qalır, sonra ətrafa yayılan damcı vasitəsilə insanlar virusa yoluxur. Eyni zamanda, virus hopmuş çirkli səthə toxunaraq da xəstəliyə yoluxmaq mümkündür. Ona görə də virusa yoluxmamaq üçün əllərinizi tez-tez sabunla və ya dezinfeksiyaedici maddələrlə təmizləmək mütləqdir.



Bundan başqa virusu geyimlər vasitəsilə də evlərə daşımaq mümkündür. Virusun paltarlarda 12 saat qalıcılıq qabiliyyətinə malik olduğunu nəzərə alaraq, çöldən gəldiyimiz geyimləri 60 və ya 90 dərəcədə yumaq lazımdır. Əgər buna imkan yoxdursa, o zaman geyimləri 4-5 saat müddətində eyvanda və ya açıq havada saxlaya bilərsiniz.



Mütəxəssislər market və ya bazarlardan alınan məhsulları evə gətirərkən onları ilk növbədə su ilə yumağı məsləhət görürlər. Hər kəs əşyaların haradan gəlməsinə diqqət etməli, 4-5 gündən artıq yolda olan məhsullarda koronavirus aşkarlanmasa da, hər ehtimal aldığımız əşyalarla diqqətli olmalı, onları dezinfeksiyaedici məhlullarla təmizləməliyik.



Mütəmadi istifadə etdiyimiz əşyaların da daim təmizlənməsi və dezinfeksiya edilməsinin vacibliyi bildirilir. Daha sonra çöldən evə gələrkən ayaqqabılarınızı salafana qoyun və ya alt hissəsini dezinfeksiya edin.

Aparılan araşdırma zamanı məlum olub ki, koronavirus çöl şəraitində olduğunuz zamanı əllərinizdə, saqqalınızda, dırnaqlarınızda və ya saçlarınızda da qala bilər. Ona görə də bu sahələrin təmizliyinə diqqət etmək tövsiyə olunur.

***Nailə Məhərrəmova***

## Musa Qasımlı: "Prezidentin siyasətinin əsas məqsədi millətin sağlamlığı, təhlükəsizliyi və rifahının təmin edilməsidir"

"Koronovirus pandemiyasının dünyada yaratdığı ağır şəraitdən az itki ilə çıxmaqdan ötrü cənab Prezidentimiz İlham Əliyevin bilavasitə rəhbərliyi altında dövlət və hökumət qurumlarımızın həyata keçirdiyi önləyici tədbirlər, fövqəladə hallarda yorulmaq bilmədən bacarıqla işləmələri rəğbət doğurur. Belə bir vəziyyətdə cənab Prezidentimizin və birinci xanım Mehriban Əliyevanın Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak etmələri və dövlət başçımızın söylədiyi nitq böyük əhəmiyyət daşıyır".

APA-nın məlumatına görə, bunu millət vəkili Musa Qasımlı deyib. M. Qasımlı bildirib ki, koronavirus pandemiyası ilə əlaqədar tələbatın kəskin artması səbəbindən bütün ölkələrdə tibbi ləvazimat və qoruyucu vasitələrin, o cümlədən tibbi maska qıtlığı mövcuddur: "İstehsalçı ölkələrin tibbi maska ixracı ilə yanaşı, istehsal avadanlığının və xammalın ixracını da dayandırmaları müəyyən çətinliklər yaradır. Buna baxmayaraq, millətimizin sağlamlığının etibarlı təmin olunması məsələsinə xüsusi diqqətlə yanaşan dövlət başçımızın tapşırığına uyğun olaraq aidiyyəti dövlət qurumları qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalının Azərbaycana gətirilməsinə nail olub.



Fikrimcə, bu açılışa sadəcə yeni bir müəssisənin qurulması kimi qiymət vermək məhdud yanaşma olardı. Hər şeydən əvvəl, müəssisənin açılışı bir daha göstərdi ki, cənab Prezidentimizin siyasətinin başlıca məqsədi yaranmış şəraitdə millətimizin və dövlətimizin qorunması, insanlarımızın bu xəstəliyə yoluxmasının qarşısının alınması, millətimizin sağlamlığının, təhlükəsizliyinin, rahatlığının və rifahının etibarlı təmin edilməsidir".

Deputat qeyd edib ki, məhz operativ tədbirlərin görülməsi və vəziyyətə uyğun önləyici addımların atılması öz səmərəsini verib: "Çevik idarəçilik və dövlətimizin sahibkarlara dəstəyi nəticəsində ölkəmizin maska ilə təchizat sarıdan idxaldan asılılığına son qoyuldu və yerli istehsala keçildi. İstehsalçıya İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə 1,2 milyon manat güzəştli kredit verilib. Yaradılması üçün investisiya xərcləri 3,9 milyon manat təşkil edən müəssisədə birinci mərhələdə hər gün 120 min tibbi maska istehsal ediləcək. Həm də nəzərdən qaçırmayaq ki, bu iş iki həftə ərzində görülüb. İkincisi, qısa müddətdə ölkəmizdə dezinfeksiya vasitələrinin istehsalı da təşkil edilib. Üçüncüsü, müəssisənin açılışı ölkəmizdə qeyri-neft sektorunun inkişafının göstəricilərindən biridir. Dördüncüsü, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, bütün bunlar yeni iş yerlərinin açılması deməkdir. Nəhayət, koronavirus xəstəliyi bir çox iqtisadi və xidmət sahələrinə mənfi təsir göstərsə də, cənab Prezidentimizin öz nitqində dediyi kimi, ən azı 2,5 milyard manat ayrılacaq ki, Azərbaycanda həm iqtisadi sabitlik təmin edilsin, həm də məşğulluqla bağlı problemlər öz həllini tapsın. Nitqində dövlət başçımızın sahibkarlara iş yerlərini ixtisar etməmələrinə dair çağırışı və tələbi hamının ürəyindəndir.

Göründüyü kimi, dövlət və hökumət orqanlarımız özlərindən asılı olan bütün zəruri tədbirləri həyata keçirirlər. Belə şəraitdə vətəndaşlarımız məsuliyyətli, nizam-intizamlı olmalı, Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün təlimatlarına tam riayət etməlidirlər ki, xəstəlik geniş vüsət almasın, biz bu vəziyyətdən az itkilərlə çıxa biləK. Biz birlikdə güclüyük".

# Aprel döyüşləri tarixi qələbəmizdir

***Tarixi sənədlər və mövcud faktlar Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq edir və bunu, heç şübhəsiz, işğalçı Ermənistanın terrorçu başbilənləri də aydın şəkildə bilirlər. Demokratik düşüncəli dünya xalqları və beynəlxalq təşkilatlarda Azərbaycanın ərazi bütövlüyü və suverenliyini birmənalı və qəti şəkildə dəstəkləyirlər. BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycanın ərazilərinin işğal edilməsini qınayan və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edən 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələr qəbul etməsi buna misal ola bilər. BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olmasını təsdiq edib və işğalçı qüvvələrin bütün işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib.***



ATƏT, AŞPA, İKT, Qoşulma Hərəkatı və digər beynəlxalq təşkilatlar da oxşar mövqe nümayiş etdiriblər. İşğalçı Ermənistan isə dünya birliyinin tələb və qərarlarına əməl etmək istəmir və işğalçılıq siyasətini davam etdirməkdədir. Təbii ki Azərbaycan xalqı Ermənistanın təcavüzkar siyasətinin davam etdirilməsinə imkan verməyəcək. Necə ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayan və ayın 5-də Rusiyanın vasitəçiliyi ilə atəşkəs razılaşmasının imzalanmasına qədər davam edən döyüşlərdə Ordumuz işğal altında olan torpaqlarımızın bir hissəsini, strateji məntəqələri azad etməklə işğalçını cəzalandırmağa qərarlı olduğunu nümayiş etdirdi.

## 40 dəqiqəyə işğalçı ölkənin 40 tankı 420 canlı qüvvəsi məhv edildi

Hərbi əməliyyatlar zamanı işğalçı Ermənistana məxsus 45 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib. Düşmənin 500-dən çox döyüşçüsü öldürülüb və 500-dən artıq döyüşçüsü yaralanıb. Əks-hücum əməliyyatı aparan ordumuz mühüm mövqelərə sahib oldu. Lələtəpə kimi yüksəklik alındı. Nəticədə 1994-cü ildə düşməndən azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır.

2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin 3 üzvü "Azərbaycanın Milli Qəhrəmanı", 7 üzvü "Azərbaycan Bayrağı" ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 üzvü "Vətən uğrunda" medalı, 43 üzvü "İgidliyə görə" medalı, 45 üzvü "Hərbi xidmətlərə görə" medalı, 2 üzvü "General-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırıldı. Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bu gün insanların təhlükəsiz yaşaması mümkün olub. Bununla da həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaranıb. Bu məqsədlə ölkə başçısı İlham Əliyev 24 yanvar 2017-ci il tarixində "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev aprel döyüşlərinə xüsusi önəm verərək, onu şanlı tariximiz adlandırdı: "Bu döyüşlər zamanı Azərbaycan dövləti, Azərbaycan xalqı, Azərbaycan Ordusu bir daha öz gücünü göstərdi. Aprel döyüşləri bizim böyük hərbi qələbəmizdir. Uzun illər Ermənistan öz ordusu haqqında miflər yaradırdı, uydurmalar irəli sürürdü ki, guya bunların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, kimin ordusu yenilməzdir". Ermənistanın aprel döyüşlərində öz acı məğlubiyyətini etiraf etməyə məcbur olduğunu vurğulayan Ali Baş Komandan İlham Əliyev onu da bildirib ki, "Məhz aprel döyüşlərindən sonra Ermənistanın müdafiə naziri başda olmaqla bir çox yüksək vəzifəli hərbçilər öz vəzifələrindən kənarlaşdırıldı. Bu, aprel döyüşlərinin nəticəsi idi. Bizim əsgərlərimiz, zabitlərimiz qəhrəmanlıq göstərdilər. Biz şəhidlər də verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq torpağımızı qoruduq, torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdik. Aprel döyüşləri hərbi kitablara salınmalıdır. Azərbaycan Ordusu həm hərbi peşəkarlıq, həm qəhrəmanlıq göstərmişdir".

Erməni işğalçıları tərəfindən işğal olunmuş torpaqlarımızın 2000 hektar ərazisi Azərbaycan Ordusu tərəfindən azad edildikdən sonra ölkə başçısının cəbhəyanı bölgələrə səfər etməsi və əsgərlərimizlə, zabitlərimizlə görüşməsi, orada yaşayan əhalinin yaşayış şəraiti ilə yaxından tanış olması bir daha xalqımızın mənfur düşmən üzərində əldə edəcəyi növbəti qələbələrə inamını artırdı. Artıq Ermənistanın bir çox tanınmış ictimai-siyasi xadimləri, siyasi şərhçiləri bu torpaqların Azərbaycana məxsus olduğunu söyləməklə yanaşı, Sarkisyan rejiminin işğalçılıq siyasətini pisləyən bəyanatlar səsləndirib, işğalçı ordunun Azərbaycan torpaqlarından çıxmasını tələb edirdilər. Ona görə ki, aprel döyüşləri ilk növbədə Ermənistan dövlətini, cəmiyyətini sarsıtdı, onlara ağır zərbə vurdu. Digər tərəfdən, cinayətkar, qaniçən Sarkisyan rejiminin girovuna çevrilmiş erməni xalqı aprel döyüşlərindən sonra öz taleyi haqqında daha çox düşünməyə başladı. Beləliklə də, nəhayət də Serj Sarkisyan rejimini hakimiyyətən uzaqlaşdırmağa nail oldular. Bunla yanaşı ermənilər Qarabağın Azərbaycanın torpaqları olduğunu və yaxın vaxtlarda bunu gerçəkləşdirəcəyini dərk etdiklərindən bir çox erməni ailələri öz övladlarını Qarabağ cəbhəsinə hərbi xidmətə göndərməyə etiraz edir, onları hansısa harın rejimin siyasətinə qurban verməyəcəklərini bildirlər.

Aprel döyüşləri uzun illərdir ki, Ermənistanda yalandan formalaşdırılmış "məğlubedilməz ordu" mifini heçə döndərdi. Vasitəçilər və yalvarış dolu açıqlamalar olmasa idi Azərbaycan ordusu Xankəndində müstəqil Azərbaycanın üçrəngli bayrağının dalğlnmasını təmin edəcəkdi. Həmin vaxtlar Serj









# Aprel döyüşləri tarixi qələbəmizdir





Sarkisyan rejiminin və separatçı "DQR" rəhbərliyinin xarici ölkələrlə apardıqları danışıqları xatırlamaq kifayət edər. Yəni bütün bunlar bir daha sübut etdi ki, "erməni ordusu" əfsanəsi əslində sabun köpüyündən başqa bir şey deyilmiş. Aprel zəfərindən sonra Ermənistan və Azərbaycan prezidentləri münaqişənin tənzimlənməsi üzrə ATƏT-in Minsk Qrupuna həmsədrlik edən ölkələrin rəsmilərinin iştirakı ilə Vyanada görüşdülər, həmçinin iyunun 20-də Sankt-Peterburqda Rusiya prezidentinin iştirakı ilə üçtərəfli danışıqlar keçirildi. Görüşlərdə münaqişə bölgəsində etimad tədbirlərinin möhkəmləndirilməsi, insidentlərin araşdırılması mexanizmlərinin yaradılması, ATƏT-in fəaliyyətdə olan sədri ofisinin genişləndirilməsi haqqında razılıq əldə edildi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil, bütün region üçün ciddi təhlükə mənbəyidir. Yəni hər an müharibə alovlana bilər. Bunun real olduğunu işğalçı və onun havadarlarıda gözəl anlayırlar. Bu baxımdan münaqişənin uzanması və vaxt qazanmaq üçün müxtəlif hiyləgər vasitələrdən istifadə edirlər. Ancaq Azərbaycan bəyan edir ki, işğal faktı, mövcud status-kvo ilə barışmaq və Ermənistanın təxribatlarına dözmək niyyətində deyil. Əksinə, düşmənə layiqli cavab vermək, torpaqlarını azad etmək iqtidarındadır. Azərbaycan Ordusu düşmənə qarşı öz ərazilərimizdə əməliyyat aparıb. Bu baxımdan da beynəlxalq təşkilatlar, nüfuzlu ölkələr aprel döyüşlərilə bağlı Azərbaycan əleyhinə bir söz deyə bilməzdilər. Azərbaycan qarşılıqlı qaydada hərbi əməliyyatları dayandırmağa razı oldu və bununla da münaqişənin sülh yolu ilə həllinə üstünlük verdiyini bir daha nümayiş etdirdi.





## Qələbə günü uzaqda deyil

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev beynəlxalq tədbirlərdə çıxışlarında və KİV-lərə verdiyi açıqlamalarında hər zman bəyan edib ki, Ermənistanın müstəqil bir ölkə kimi fəaliyyəti qonşularla münasibətlərini tənzimləməkdən və öz qüvvələrini Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarmasından asılıdır: "Biz sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq son illər ərzində aldığımız ən müasir, - mən onu bir daha qeyd etmək istəyirəm, - dünyanın ən müasir silahları bizə çox böyük imkan yaradır. Aprel döyüşləri zamanı biz sadəcə olaraq imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu, bir daha onu göstərir ki, aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq. Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrində idiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik. Bunlar sirr deyil. Burada hər şey beynəlxalq monitorinq altındadır. Bilirlər ki, bizim uzaqmənzilli raketlərimizin, pilotsuz döyüş aparatlarımızın gücü nədən ibarətdir. Biz onlardan demək olar ki, istifadə etmədik. Amma əgər istifadə etsək, işğal olunmuş torpaqlarda düşmənin daşı-daş üstdə qalmayacaq. Bunu onlar bilsinlər və özünü növbəti dəfə biabır edən Ermənistanın siyasi rəhbərliyi danışığına fikir versin və bizim səbrimizlə oynamasın".

Bir sözlə, güclü və qüdrətli Azərbaycan ordusu aprel zəfəri ilə işğalçı Ermənistana layiq olduğu zərbəni və cəzanı verdi. Təbii ki, qələbənin və zəfərin davamı olacaq. O zaman ki, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev orduya əmr verəcək. O gün və zaman isə uzaqda deyil.

***İ.ƏLİYEV***





# Cəmiyyət özünü müdafiə etməyə məcburdur

***Karantin, yaxud evdə qalmaq tapşırığı gəzinti və əyləncə üçün deyil. Bu, virusun ötürülməsi zəncirlərini pozmaq üçündür. Bir sözlə insanlar həyati şərtlərdən başqa evdə qalmalı, qoyulan qaydalara əməl etməlidirlər.***




Vətəndaşların işdən uzaqlaşdırılması, ictimai yerlərdən təcrid edilməsi onların evdə qalmaları üçün nəzərdə tutulub. Bu məzuniyyət, istirahət və yaxud hansısa başqa məqsəd daşımır. Lakin bəzən insanlar işə getmədiklərindən, evdə qaldıqlarından sui- istifadə etməyə çalışırlar. Bir çoxları bu vəziyyətdən gəzinti, piknik kimi istifadə etməyə can atır. Kimlərsə bu dırnaqarası imkanlardan yararlanmaq kimi bir niyyət güdür və hətta gəzinti üçün istifadə edir. Lakin dərk etmək istəmirlər ki, bununla infeksiyanın yayılmasına, daha böyük areala sahib olmasına özləri öz xoşları ilə şərait yaradırlar. Çünki məhz belə bir məsuliyyətsizlik insandan insana ötürülən bu virusun hüdudları aşmasına əsaslı zəmin yaradır.

Görünür, məhz bu səbəbdən də qadağaları sərtləşdirməsinə ehtiyac duyuldu və indiki vəziyyətdə bu, ən prioritet məsələdir. Proiritet olmaqla yanaşı həm də qaçılmaz məsələdir və ən doğru yoldur. Dünya təcrübəsinə nəzər saldıqda görürük ki, virusun, infeksiyanın ilk dəfə yayıldığı Çində sərt qaydalara ciddi riayət edildiyindən, qısa bir zamanda ölkə sözügedən xəstəliyin öhdəsindən necə gəldi. Bu ölkədə infeksiyaya qarşı birlik nümayiş etdirildi. İnsanlar evlərdən çölə çıxmadılar. Mənzillərin qapıları qarşısında qoyulan spirt və salfetlərdən mənzilin qapısına toxunan hər kəs istifadə edir, özlərini və mənzil sahiblərini də mövcud təhlükədən, yoluxma riskindən mühafizə edirdilər. Bir sözlə, qeyd etdiyimiz virusun ötürülməsi zəncirlərini pozmaq üçün əllərindən gələni edirdilər və buna nail oldular da. Karantin rejiminə bir vaxtlar ciddi yanaşmayan Avropa ölkələri bunun acı nəticələrini gördü və hər biri ayrı-ayrılıqda virusun ilk yayıldığı və yoluxma statistikasına görə liderlik edən Çini qabaqladı. İndi qoca Qitədə virusun yayılma arealı və yoluxma statistikası Hubey əyalətindən, Uhandan, Çindən də dəfələrlə yuxarıdır. Səbəb isə Çinin etdiyi kimi, qaydalara riayət etməmək və Ümumdünya Səhiyyə Təşkilatının Pandemiya kimi tanıdığı bu vəziyyətə dırnaqarası yanaşmaq oldu.

Birləşmiş Ştatların özündə belə laqeyid yanaşma səbəbindən vəziyyət hər yerdə olduğundan daha gərgindir. Bir zamanlar bu ölkəyə yön alan gəmidə bir neçə nəfərin bu virusa yoluxduğu, ümumilikdə isə cəmi bir neçə yoluxmuş insanın olduğu bildirilən ABŞ indi Avropa ölkələrini də yoluxma statistikasına görə qabaqlayır. ABŞ prezidenti Donald Tramp özü də kifayət qədər laqeyidlik nümayiş etdirərək vəziyyətin gərginləşməsinə, yoluxma hadisəsinin armasına bir növ şərait yaratdı. Hətta bu səhvini sonradan etiraf da etdi. Nəticədə isə bu səhv, yəni laqeyidlik bütün amerikalılara baha başa gəldi və ciddi yoluxma hadisəsi ilə nəticələndi.

Rusiya Federasiyanın özündə də bu gün, məsələn əksər qurumlarda qida xidməti çatdırılma rejiminə keçib, kafe və restoran salonları bağlanıb. Küçələrdə vətəndaşların olmasına icazə verilmir. Ölkə paytaxtında daha ciddi rejim tətbiq olunur. Ancaq bu heç də yetərli sayıla bilməz. Çünki, dünyada sərhədlərin bağlanması prosesi başlayanda minlərlə Rusiya vətəndaşı bütün dünyaya istirahət və alış-veriş üçün səpələnirdi. Heç bir vətəndaş, heç Rusiya hökuməti özü də bu vəziyyətə ciddi yanaşmırdı. Hal-hazırda Rusiyanın da yoluxma və ölüm hadisələrinə görə liderlik edəcəyi proqnozlaşdırılır. Bütün bunlarla yanaşı, qeyd etdiyimiz istirahət və alış-veriş üçün səpələnən Rusiya vətəndaşları da ölkə üçün probleme və real təhlükəyə çevrilib. İndi Rusiya hökuməti xarici orqanlarla evakuasiya üçün xüsusi uçuşlara icazə vermək üçün danışıqlar aparmalıdır. Bu həm də ciddi, real təhlükə və yeni bir risk deməkdir.

Cəmiyyəti nəzərə almadan məhdudiyyətsiz fərdi azadlıq son dərəcə cəlbedicidir. Lakin bu cəlbediciliyə tabe olmaq insan cəmiyyəti üçün xarakterik olmamalıdır. Çünki, əks halda nəticələr daha pis ola bilər. Qarşılıqlı əlaqə zənciri virusun ötürülməsi zəncirlərinə çevrilər və yoluxmanın qarşısını almaq mümkünsüz olar. Buna görə də cəmiyyət sadəcə özünü düşünənlərə qarşı özünü müdafiə etməyə məcburdur. Karantin pozuntusuna və bir çox digər qadağalara məhəl qoymayanları cəzalandıran qanunlar paketinin qəbul edilməsi ən doğru yoldur. Heç şübhəsiz ki, cəmiyyəti mühafizə edən qanunların, qaydaların, eyni zamanda müvafiq qadağaların tətbiqi pandemiyadan sonra da tətbiq olunması ən doğru seçimdir. Çünki təhdidlər fərqli ola bilər. İnsan cəmiyyətinin məhz qadağalara, normalara riayət etməməsi səbəbində planetin çirklənməsindən tutmuş, atmosferin zəhərli qazlarla zənginləşdirilməsinə qədər zərərli təsirlər mövcuddur ki, bunun da acı nəticələri çoxdan proqnozlaşdırılırdı.

*İnam HACIYEV*

# Dövlətimizin başçısı tərəfindən müəyyən edilən dəstək istiqamətləri çox geniş fəaliyyət sahəsini müəyyən edir

*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin yap.org.az-a müsahibəsi*

***-Tahir müəllim, ölkəmizdə koronavirus pandemiyasının iqtisadiyyata və sosial sahəyə vurduğu zərərin qarşısının alınması ilə bağlı atılan addımları necə qiymətləndirirsiniz?***



-Koronavirusun yayılmasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması istiqamətində profilaktik və təxirəsalınmaz tədbirlərin görülməsi vətəndaşlarımızın həyatının qorunması baxımından əlahiddə tədbirlərdir. Dövlət başçısı cənab İlham Əliyevin bütün bu tədbirləri şəxsən nəzarətdə saxlaması Onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşının durmasının bariz nümunəsidir.

Koronavirusun Azərbaycanda kütləvi şəkildə yayılmaması, əhalinin sağlamlığının mühafizəsi ilə bağlı zəruri olan bütün addımlar atılır, ən yüksək səviyyədə qabaqlayıcı tədbirlər görülür. Dünyada olduğu kimi, Azərbaycanda da pandemiyanın yayılmasını məhdudlaşdırmaq məqsədilə turizm, ticarət, ictimai iaşə kimi sahələrdə xüsusi iş rejimləri tətbiq olunub və iş fəaliyyəti məhdudlaşdırılıb. Aparılan təhlillərə görə, həyata keçirilən bu tədbirlər təbii olaraq ölkədə işgüzar fəallığa təsir edə və təsirə məruz qalan sahələrdə sahibkarların itkilərlə üzləşməsinə, insanların iş yerlərini itirməsinə səbəb ola bilər.

Pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı dövlət başçısının imzaladığı sərəncamla dəstək tədbirlərinin maliyyələşdirilməsi üçün Nazirlər Kabinetinə 1 milyard manat vəsait ayrılıb. Sərəncam 4 istiqamətdə xüsusi tədbirlərin görülməsini nəzərdə tutur: pandemiyanın iqtisadiyyata təsirini qiymətləndirmək; sahibkarlıq subyektlərinə dövlət dəstəyi; məşğulluq problemlərinin və sosial problemlərin həlli; makroiqtisadi sabitliyin qorunub saxlanması üçün tədbirlər planın hazırlanması. Göründüyü kimi, dövlətimizin başçısı tərəfindən müəyyən edilən dəstək istiqamətləri çox geniş fəaliyyət sahəsini müəyyən edir. Artıq ilkin olaraq açıqlanan tədbirlər planının maliyyə tutumu 3 milyard manatı keçmişdir. Bu vəsaitin ÜDM-ə nisbəti göstəricisinə görə Azərbaycan regionda iqtisadiyyata və insanların sosial həyatına ən çox vəsait ayıran ölkədir.

***- Hökumət tərəfindən verilən qərarlar sahibkarların maraqlarını nə dərəcədə qoruyur?***

-İlk öncə məhdudlaşdırıcı tədbirlərdən təsirlənən sahələrin müəyyən edilməsi vəsaitin ədalətli və hədəfli bölgüsünə imkan yaradır. Digər tərəfdən, tədbirlər planının ani, orta və uzunmüddətli olması dəstək tədbirlərinin təsirinin daha uzunmüddətə hesablandığını deməyə əsas verir. Ani olaraq fərdi sahibkarlara və muzdlu işçilərə vəsaitin köçürülməsi fərdi sahibkarların müflis olmasının qarşısını alır, muzdlu işçiləri isə ixtisar olunmaqdan qoruyur. Orta müddətli dəstək - vergi güzəştləri, kredit dəstəyi, xərclərin bir hissəsinin dövlət tərəfindən ödənməsi sahibkarları indiki şəraitdə qorumağa və fəaliyyətlərini gələcəkdə davam etdirmələrinə imkan verəcək.

Uzunmüddətli tədbirlər planında pandemiyadan sonrakı dövrdə iqtisadi aktivliyi artırmaq, sahibkarlar üçün ucuz maliyyə mənbələri yaratmaq və innovativ itqtisadi fəaliyyəti dəstəkləmək məqsədi daşıyır ki, bu da iqtisadiyyatımızın gələcəkdə daha sürətlə inkişaf etməsinə imkan yaratmağa hesablanıb.

***- Tədbirlər planında əhalinin sosial müdafiəsinin qorunması məsələləri haqqında da fikirlərinizi bilmək istərdik...***

- Əhalinin sosial müdafiəsi dövlət siyasətinin əsas tərkib hissəsidir. Belə şəraitdə əslində bütün proqramların son hədəfi insanların həyat şəraitinə dəstək verilməsdir. Əmək haqqlarının 50%-nin dövlət tərəfindən ödənməsi və fərdi sahibkarlara birbaşa ödəmələr də əslində həm də sosial dəstəkdir. Bundan başqa da ani dəstək proqramı çərçivəsində işsiz kimi qeydiyyata alınmış vətəndaşlara 2 ay ərzində hər ay 190 manat ödənməsi, 50 min ictimai iş yerlərinin yaradılması və onlara hər ay 300 manat ödəmənin nəzərdə tutulması, tələbələrin təhsil haqqlarının dövlət hesabına ödənməsi, ünvanlı sosial yardım alan vətəndaşların yardım alma hüquqlarının 2 ay uzadılması və s. kimi birbaşa yardımlar dövlətin bu çətin şəraitdə vətəndaşlara mühüm dəstəyidir. Bundan əlavə, dolayısı yolla tibbi xidmətlərə dövlətin ayırdığı vəsaitlər də insanlarımızın sosial həyatlarına müsbət təsir edəcəkdir.

***- Tahir müəllim, yaranmış vəziyyət iqtisadi qanunvericilikdə də dəyişiklikləri zəruri edirmi?***

- Milli Məcis yaranmış şəraitə uyğun olaraq onlayn iclaslar keçirməklə hökumətin həyata keçirdiyi tədbirlərə zəruri qanunvecirilik dəstəyinin verilməsi üçün fəaliyyətini davam etdirir. Pandemiyadan sonrakı dünyanın fərqli bir dünya olacağını bütün təhlilçilər söyləyir. İqtisadi münasibətlərdə yeni innovativ fəaliyyətlərin və milli tənzimləmələrin əsas hərəkətverici qüvvə olacağı proqnozlaşdırılır.

İqtisadi qanunvercilik qarşısında da əsas vəzifə pandemiyadan sonrakı iqtisadi aktivliyi artırmaq və yeni iqtisadi münasibətlərin qurulması yönümündə müvafiq hüquqi bazanın yaradılması, mövcud qanunların təftiş olunması və onların gələcək fəaliyyətə uyğunlaşdırılmasıdır. Dövlət başçısının apardığı iqtisadi islahatların öz hədəfinə daha tez çatması istiqamətində iqtisadi qanunvericiliyin təkmilləşdirilməsi bizim ən ümdə vəzifəmizdir.

# Bakı polisi: Müvafiq icazəsi olmayan şəxslər müəyyənləşdirilərək barələrində qanunvericiliyə uyğun tədbirlər görülür




Nazirlər Kabineti yanında Operativ Qərargahın koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında qərarına uyğun olaraq nəzərdə tutulan tədbirlər davam etdirilir. Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Daxili İşlər Nazirliyinin əməkdaşları koronavirusun geniş yayılmasının qarşısının alınması üzrə dövlət tərəfindən həyata keçirilən tədbirlər çərçivəsində insanların fərdi evlərində və mənzillərində, daimi və ya müvəqqəti yaşadıqları (olduqları) yerlərdə qalmalarını tələb edirlər. Paytaxtda müvafiq icazə olmadan hərəkət edən şəxslər, eləcə də nəqliyyat vasitələrinin sürücüləri və sərnişinləri yoxlanılır. Müvafiq icazəsi olmayan şəxslər müəyyən olunaraq barələrində qanunvericiliyə uyğun tədbirlər görülür.

# Ermənistan iki həftə sonra nəzarətsiz faciəylə üzləşəcək



*Aqasi Yenkoyan: "Hökumətin bu cür davranışı korrupsiya, hakimiyyətdən sui-istifadədir ki, bəzi adamların maraqlarına xidmət edir"*



***Ermənistanda koronavirusla mübarizədə ciddi problemlər yaşanır. Artıq siyasi və ictimai qurumların təmsilçiləri, media nümayəndələri bu istiqamətdə Paşinyan hakimiyyətini sərt şəkildə ittiham edir, məsuliyyətsizlikdə, etinasızlıqda və s. məsələlərdə ittiham edirlər.***

"Respublikada təlaşlı vəziyyətin yaranması əsasında cavabdehliyi hakimiyyətin qeyri-ciddiliyi dayanır". Bunu Ermənistanın "Media mühafizəçisi" təşkilatının rəhbəri Aqasi Yenkoyan ölkədə yaranımş ağır vəziyyəti, xüsusilə "COVİD-19"-la bağlı çıxılmaz situasiyanı şərh edərkən deyib.

### Hökumətin bu cür davranışı korrupsiya, hakimiyyətdən sui-istifadədir ki, bəzi adamların maraqlarına xidmət edir

Onun sözlərinə görə, təbii sərvətlər nazirinin hökumətə verdiyi təklifində "İnformasiya azadlığı haqqında" qanunda edilən düzəlişlər əslində bu azadlığı pozur. Belə ki, düzəlişdə informasiyanın təqdim olunması müəyyən hallarda rədd edilə bilər. "Vəziyyətdən istifadə edərək, onlar bunu qanuna sırımağa çalışıarlar", deyə Yenkoyan bildirib. Onun sözlərinə görə, hökumətin bu cür davranışı korrupsiya, hakimiyyətdən sui-istifadədir ki, bəzi adamların maraqlarına xidmət edir.

"Çox yəqin ki, burada həmçinin maliyyə korruppsiyası riski var", deyə ittihamını davam edirən "Media mühafizəçisi" təşkilatının rəhbəri onu da bildirib ki, burada bir sıra insanlar və təşkilatlar üstünlük əldə edirlər: "Son günlər hakimiyyətin fəaliyyəti sferasında vətəndaşların azalığına məhdidiyyətlər, təzyiqlər, o cümlədən informasiya azalığına maneələr kimi hallar daha çox görünməyə başlayıb. Bunun aşkar sübutu 1-2 gün əvvəl telefonların dinlənilməsi və hərəkətlərin müəyyən edilməsini təsdiq edən qanunlar paketinin qəbuludur. Bu qanun sadəcə hakimiyyətin məhdudlaşdırma siyasətində atdığı növbəti addımdır".

### "Paşinyan hökuməti koronavirus epidemiyasını müxalifətlə və siyasi opponentləri ilə mübarizədə istifadə edir"

"Beləliklə, erməni media qurumunun təmsilçisi inanır ki, Paşinyan hökuməti koronavirus epidemiyasını müxalifətlə və siyasi opponentləri ilə mübarizədə istifadə edir", deyən Yenkoyan əlavə edib ki, fövqəladə halın qəbulu bütün bunlara xidmət edir: "Biz tez-tez görürük ki, hakimiyyət bu rejimdən teztez sui-istifadə etməklə insanlar arasında həyəcan saxlamağa çalışır və zaman-zaman öz hakimiyyətini möhkəmləndirmək üçün bu addımları atır".

Erməni ictimaiyyətçi sonda SOS siqnalı da verib və bildirib ki, mövcud vəziyyətdə hökumətin bu cür fəaliyyəti bir neçə həftədən sonra respublikanı nəzarətsiz faciəyə aparıb-çıxaracaq.

*Rövşən RƏSULOV*



## İzolyasiya və karantin arasındakı fərq nədir?

***Demək olar ki, heç kim Çində baş verən və qısa müddət ərzində dünyada 1 milyondan çox insana yoluxan yeni növ koronavirusun - Covid-19 xəstəliyinin adını eşitməyən qalmayıb.***

Bəs narahatlıqla izlədiyimiz bu epidemik xəstəlik üçün istifadə etdiyimiz terminlərin nə qədəri haqqında bilirik?

Xəstəliyi daha yaxşı başa düşməyinizə kömək edən COVID-19 terminləri:

**Epidemiya:** Müəyyən bir müddət ərzində müəyyən qrup insanlar arasında gözləniləndən daha çox xəstəliyin yayılmasıdır. Baş vermiş hadisəni bir cümlə ilə təsvir edə bilsək də, epidemiyanın mövcudluğunu müəyyənləşdirmək üçün risk faktorlarının retrospektiv qiymətləndirilməsi, hadisələrin geniş coğrafiyada görünməsi və uzun müddət yayılması, əvvəllər məlum olmayan patogenlərin amillər olması kimi bir çox amil var.

**İnfeksiya:** birbaşa və ya dolayı yoluxucu şəxsin başqa birinə yoluxdurması.

**Mənbə:** İnfeksiyanı qəbul edənə çatdıran qida, əşya, heyvan, və ya insan.

**Ev sahibi:** İçində və ya üstündə parazit kimi başqa bir orqanizmi ehtiva edən bir varlıq.

**Hadisə:** Xəstəliyi və ya sağlamlıq problemi olan bir adam.

**Endemik:** Müəyyən bir coğrafi ərazidə bir cəmiyyətdə bir xəstəliyin və ya yoluxucu obyektin daimi olması deməkdir. Yoluxucu bir xəstəliyin endemik olması üçün həmin xəstəliyə məruz qalan hər bir insan xəstəliyi orta hesabla bir adama ötürməlidir.

**Epidemiya:** Bir bölgədə, cəmiyyətdə və ya bir qrup insanda gözləniləndən daha çox bir xəstəliyin meydana gəlməsini ehtiva edir. Epidemik yoluxmalara səbəb olan xəstəliklər, qəfildən yayılması və ya xaricdən yeni bir virus səbəbiylə meydana gələ biləcək bir regional xəstəlikdir.

**Pandemiya:** Epidemiya kimi Yunan mənşəli olub, iki sözdən ibarətdir və Pan "hamısı" və demos "insanlar" mənasını verir. Başqa sözlə, pandemiya regional olmaqdan çıxmış və qlobal təsir göstərən epidemiyalara verilən ümumi bir addır.

**Epidemiologiya:** Yoluxucu xəstəliklərlə məşğul olan elm sahəsi.

**Koronavirus:** (CoV), ümumi soyuqdəymədən Orta Şərq Tənəffüs Sindromu (MERS-CoV) və Şiddətli Kəskin Tənəffüs Sindromu (SARS-CoV) kimi müxtəlif xəstəliklərə səbəb olan böyük bir virus ailəsidir.

**COVID-19:** Yeni koronavirusun yaratdığı xəstəliyə verilən ad. İlk dəfə Çində 2019-cu ilin sonlarında aşkar edilib. Xəstəliyin mənbəyi 7 yanvar 2020-ci ildə əvvəllər insanlarda aşkarlanmayan yeni bir koronavirus (2019-nCoV ya SARS-CoV-2) olaraq təyin olunub. Daha sonra bu virusun yaratdığı xəstəliyin adı COVID-19 olaraq qəbul edilib. Virusun mənşəyi hələ dəqiqləşdirilməyib. Lakin araşdırmalar qanunsuz satılan vəhşi heyvanlara işarə edir.

**İnkubasiya dövrü:** İnfeksiya ilə xəstəlik əlamətlərinin




aşkara çıxdığı arasında vaxt. Yeni koronavirusun inkubasiya dövrünün 14 günə qədər olduğu deyilir.

**Karantin:** Yoluxucu xəstəliyin yayıldığı mənbədən (yerdən, ölkədən) gələn insanları, gəmiləri, malları və ya heyvanları izolyasiya olunmuş bir yerdə müvəqqəti saxlamaq və müşahidə etmək şəklində bir sağlamlıq tədbiri.

**İzolyasiya:** Xəstəliyin yayılmasının qarşısını almaq üçün xəstə insanları sağlam insanlardan ayırmaq üsulu.

**Sanitariya:** Ətraf mühitdə mikrob kolonizasiyasını xalq sağlamlığı üçün məqbul səviyyələrə endirmək və ya aradan qaldırmaq.

*Aysel Məmmədova*




# "Əsas məsələ iqtisadiyyatımızın da pandemiyadan sığortalanmasıdır"

***"D**övlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, 2020-ci ili də yaxşı başlamışdıq. Yanvar-fevral aylarında ümumi daxili məhsul (ÜDM) 2,8 faiz, o cümlədən qeyri-neft sektoru 6,7 faiz, qeyri-neft sənayesi 21,7 faiz artmış, inflyasiya cəmi 2,8 faiz, əhalinin gəlirləri isə 9 faiz olmaqla, sonuncu birincini üstələmişdi. Amma koronavirus pandemiyası milli iqtisadiyyatımıza həm dünyaya sirayət etməklə kənardan, həm də daxildə yayılaraq içdən ciddi şəkildə zərər vurdu. Ən acınacaqlısı isə odur ki, proses davam edir və nə vaxt bitəcəyi bilinmir". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Pərviz Heydərov deyib.*



O bildirib ki, dünyada baş verənlər fonunda dövlətin və hökumətin qarşısında birdən-birə iki olduqca vacib və mühüm məsələni həll etmək vəzifəsi durub: "Birincisi, əhalinin sağlamlığının qayğısına qalmaq, ikincisi isə, iqtisadiyyatı neftin qiymətinin kəskin şəkildə aşağı olmasından, həmçinin, maliyyə və iqtisadi sarıdan daxili nizam-intizamın pozulmasından, baş verə biləcək tənəzzüldən sığortalamaq".

Ekspert söyləyib ki, dövlət başçısının bu mənada koronavirus pandemiyasının və bundan irəli gələrək, dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların iqtisadiyyata, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirlərini azaltmaqla bağlı bir sıra tədbirlər haqqında imzaladığı 19 mart 2020-ci il tarixli Sərəncamı çox əhəmiyyətli oldu: "Məlumdur ki, həmin sərəncamla cari ilin dövlət büdcəsindən Nazirlər Kabinetinə 1 milyard manat vəsait ayrılıb. Ölkəmizin böyük maliyyə ehtiyatları olduğundan, bundan da artıq vəsait ayırmaq mümkündür".

P.Heydərov qeyd edib ki, sözügedən sərəncamla yaradılan İşçi Qrupunun pandemiyanın iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirini azaltmaqla bağlı hazırladığı və hökumətin həyata keçirəcəyi tədbirlər bəllidir: "Birincisi, özəl sektorda çalışan ümumən 640 min işçinin 304 min nəfərinin (45 faizinin) maaşları ödəniləcək, ikincisi, 290 mindən çox mikro və fərdi sahibkara maliyyə dəstəyi göstəriləcək, üçüncüsü, biznes üçün müxtəlif xarakterli vergi güzəştləri, tətilləri və imtiyazlar olacaq, dördüncüsü, vergi ödəyicilərinin bank kreditlərinə dəstək veriləcək, beşincisi, əhalinin elektrik enerjisinin kommunal limiti 100 kvts artırılacaq, altıncısı, sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsinə yardım ediləcək, yeddincisi, həyati vacib sərnişindaşıma fəaliyyəti sahələrinə dəstək və digərləri həyata keçiriləcək".

Ekspert sonda ələvə edib ki, ötən il sosial sahədə başlanan genişmiqyaslı maliyyələşdirmə tədbirləri üzrə 2020-ci ildə də bəzi sahələrdə əməkhaqlarının əlavə olaraq artırılması nəzərdə tutulurdu, nəticədə, 2019-cu ildə tətbiq olunan və 2020-ci ilə proqnoz edilən artımlar üçün 4 milyard manata qədər əlavə vəsait xərclənəcəkdi ki, bunun 2,5 milyard manatını koronavirus "mənimsədi": "Lakin hazırda əsas məsələ vətəndaşlarımız kimi, iqtisadiyyatımızın da bütün sektorlar üzrə pandemiyadan maksimum səviyyədə sığortalanmalı və bu böhrandan sağ-salamat çıxmasıdır".

***N.Məhərrəmova***

## "Nar" koronavirusla mübarizəyə dəstək tədbirləri çərçivəsində abunəçilərə səyyar xidmət göstərməyə başladı

Ölkədə yayılmış koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinə dəstək olaraq "Nar", abunəçilərinin evdən çıxmadan zəruri xidmətləri ala bilməsi üçün "Səyyar Nar" layihəsinə start verib. Bu xidmət sayəsində Bakı - Abşeron və Sumqayıt ərazilərində yaşayan abunəçilər evlərini tərk etmədən lazımı əməliyyatları birbaşa ünvanlarında əldə edə biləcəklər. Abunəçilər "Nar" xidmət mərkəzlərində göstərilən bütün xidmətlər üçün, eləcə də duplikat və nömrə bərpası əməliyyatları üçün "Səyyar Nar"a müraciət edə bilərlər. Müraciətlər 24/7 gücləndirilmiş iş rejimində çalışan 777 'Çağrı mərkəzi' və mobil operatorun rəsmi sosial media səhifələri üzərindən qəbul edilir. Müraciət zamanı xidmətin göstəriləcəyi dəqiq ünvan, əlaqə nömrəsi və lazım olan xidmət növü qeyd edilməlidir. Xatırladaq ki, abunəçilər tarif dəyişmə, balans artımı, internet paketlərinin aktivləşdirilməsi, izahlı qaimə və bir çox digər mühüm sorğuların "Nar+" tətbiqi vasitəsilə yerinə yetirə bilərlər. "Nar" hər kəsi Nazirlər Kabineti yanında Operativ Qərargahın təlimatlarına əməl edərək zərurət olmadığı təqdirdə evdən çıxmamağa və koronavirusla mübarizə üçün imkanları səfərbər etməyə çağırır.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,7%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Gürcüstanda COVID-19 virusuna yoluxanların sayı 188 nəfər oldu

Gürcüstanda koronavirusa yoluxanların sayı artıb. Bu barədə Gürcüstan hökumətinin koronavirusla bağlı xüsusi rəsmi stopcov.ge saytında məlumat verilib. Bildirilir ki, ölkədəki 188 şəxs COVID-19 infeksiyasına yoluxub. Onlardan 36-sı sağalıb, 2-si isə həyatını itirib. Hazırda 5056 nəfər karantində, 386 nəfər isə stasionar nəzarətdə saxlanılır.

## Koronavirus şübhəsi ilə evdə karantinə alınan şəxslərə necə qulluq edilməlidir? QAYDALAR

***K**oronavirus şübhəsi ilə evdə karantinə alınan şəxslərə düzgün qulluq qaydası həm özünüz, həm də ailə üzvlərinizin sağlamlığı üçün mütləqdir. Ona görə də ev şəraitində karantinə alınan şəxslərə baxanlar belə şəraitdə istifadə ediləcək düzgün qaydaları həm bilməli, həm də tətbiq etməlidirlər.*



*Bəs görəsən belə halda düzgün qulluq qaydası necədir? SİA Ümümdünya Səhiyyə Təşkilatı tərəfindən belə hallarda tətbiq ediləcək düzgün qaydaları təqdim edir:*

Koronavirus şübhəsi ilə evdə karantinə alınan şəxslərin, ilk növbədə qidalanmasına fikir vermək məsləhət görülür. Belə ki, şübhəli şəxsin istirahət etdiyindən bol maye və vitaminli qidalardan istifadə etməsi mütləqdir.

Şübhəli şəxslə eyni otaqda olarkən tibbi maskadan istifadə etmək mütləqdir. Tibbi maska taxdığınız zaman maskaya və üzə toxunmamalı, istifadədən sonra çıxarılmalıdır. Şübhəli şəxs üçün ayrıca dəsmallardan, qablardan, yataq dəstlərindən istifadə edin. Həmin əşyaları sabunla yumaq tövsiyə olunur. Koronavirus şübhəsi ilə evdə karantinə alınan şəxsə qulluq edirsinizsə, əllərinizi tez-tez sabunla yumalı və spirtləməlisiniz. Xüsusilə də, həmin şəxsin əşyası ilə təmasdan, yemək hazırlamadan öncə, hazırlayarkən və ya hazırladıqdan, yemək yeməzdən əvvəl, tualetdən istifadə etdikdən sonra əllərin yuyulması və spirt əsaslı məhlullarla təmizlənməsi vacibdir. Şübhəli şəxsin tez-tez toxunduğu səthlər gündəlik olaraq təmizlənməli və dezinfeksiya edilməlidir. Ən əsası isə koronavirus şübhəsi ilə evdə karantinə alınan şəxslərin səhhətində pisləşmə və ya nəfəs darlığı hiss olunarsa, mütləq şəkildə Təcili Tibbi Yardıma zəng vurulmalıdır.

***Nailə Məhərrəmova***

## SMS müraciətlərindəki gecikmələrin səbəbi açıqlandı

"SMS müraciətlərində gecikmələrlə bağlı müxtəlif səbəblər ola bilər". APA xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin mətbuat katibi Elnur Niftəliyev deyib.




O bildirib ki, müxtəlif yeni və köhnə nəsil telefon modellərinin tənzimləmə məhdudiyyətləri, bəzi şəxslərin lüzumsuz yerə dəfələrlə sistemə müraciət etməsi nəticəsində şəbəkənin yüklənməsi və mobil qurğularla bağlı digər bu kimi texniki səbəblər ola bilər: "Bir daha vətəndaşların diqqətinə çatdırırıq ki, yalnız zərurət yarandığı halda xidmətdən istifadə etmək tövsiyə olunur. Evdən çıxarkən vətəndaşın şəxsiyyət vəsiqəsinin üzərində olması mütləqdir. SMS sistemi hazırda tam dayanıqlı və təhlükəsiz vəziyyətdə çalışır. Hər hansı problem yaranacağı təqdirdə vətəndaşlar dərhal bu barədə və hansı addımların atılmalı olduğu haqda məlumatlandırılacaqlar".

## Avropa Birliyi: "Əgər bir ölkənin iqtisadiyyatı çöksə, bütün Avropanı böhran bürüyəcək"

Avropa ölkələrindən birinin iqtisadiyyatının çökməsi bütün Avropada iqtisadi böhrana səbəb olacaq. Axar.az xəbər verir ki, bunu bu barədə Avropa Birliyinin daxili bazarlar üzrə komissarı Tyeri Breton deyib. "Əgər bir ölkənin iqtisadiyyatı çöksə, bütün Avropanı böhran bürüyəcək. Hər kəs özü üçün ayrıca işləmir, çünki biz Avropa Birliyi daxilində tam inteqrasiya olunmuş bir iqtisadiyyatıq", - Breton bildirib.

## Ermənistanda qadın minaya düşüb

Ermənistanda qadın minaya düşüb. Xezerxeber.az-ın news.am-a istinadən verdiyi xəbərə görə, hadisə aprelin 5-i Ararat vilayətində baş verib.

Bildirilib ki, qadın qayınanası və yaxın dostları ilə göyərti yığarkən minaya düşüb. İrəvanda tibb mərkəzinə yerləşdirilən 1987-ci il təvəllüdlü qadının sol ayağı amputasiya edilib. Qeyd olunub ki, hadisə minalanmış sahədə qeydə alınıb.

# 114 yaşlı "Molla Nəsrəddin"

*"Molla Nəsrəddin" ənənələri yaşayır, bizləri düzlüyə və əqidəmizə sadiqliyə çağırır*

***Ötən əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və mədəni mühitində əlamətdar hadisələrdən biri "Molla Nəsrəddin" jurnalının ilk nömrəsinin işıq üzü görməsi oldu. Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik düşüncəli insanlarını ətrafına toplayan "Molla Nəsrəddin" Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Mirzəli Möcüz və başqa şair, yazıçı və jurnalistlər, o cümlədən, Oskar Şimmerlinq, İ.Rotter, Əzim Əzimzadə kimi rəssamlarla birgə milli düşüncəmizə, milli özünüdərkə və milli oyanışa bir təkan oldu. 1906-cı ilin 6 aprel günü Azərbaycan ədəbi, ictimai mühitində mühüm hadisəyə çevrilən satirik jurnalın təməl daşı qoyuldu. Zamanla üz-üzə dayanan "Molla Nəsrəddin" jurnalının ilk sayının işıq üzü görməsi, tez bir zamanda bütün Qafqazda əks-səda doğurdu, dövrün maarifpərvər, işıqlı ziyalıları onun ətrafına cəm olaraq, yaradıcılıq nümunələri ilə jurnalın fəallarına çevrildilər.***

Jurnalın nəşrinə qədər artıq qələminin, iti zəkasının hökmü ilə parlaq səhifələr yaradan Cəlil Məmmədquluzadə ədəbi mühitdə möhürünü vurmuş, hekayə, povest, alleqorik, eləcə də, dram əsərləri ilə Azərbaycanın yaşantılarını əks etdirən mövzularla çıxış etmiş, xalqın sevimlisinə çevrilən ziyalılardan biri olmuşdur. Hər zaman yaradıcılığında xalqın taleyini əks etdirməyə, insanların keçirdiyi psixoloji sarsıntıları, məişət problemlərini qabarıq bir şəkildə ifadə etməyə çalışan ziyalı dövrünün yüksək vəzifəli simalarını söz atəşinə tutmağa, qələminin gücü ilə onlara təsir etməyə çalışmışdır. Ədəbi fəaliyyətə 1880-cı illərdən başlayan Cəlil Məmmədquluzadə, 20 ilə yaxın bir dövr ərzində, özünəməxsus məktəb yaratmışdır. Bu məktəbin təməli Cəlil Məmmədquluzadənin əqidəsindən, məsləkindən yoğrulduğundan, döyüş meydanlarında möhkəm dayanaraq, sözünün gücünün nəyə qadir olduğunu sübuta yetirmişdi.

## "MOLLA NƏSRƏDDİN" İLK SAYINDAN BAŞLAYARAQ DÜZÜ-DÜZ, ƏYRİNİ-ƏYRİ DEMƏYİ ÖZÜNƏ YOL SEÇMİŞDİR

Həyatını xalqına həsr edən Cəlil Məmmədquluzadə satirik ruhlu "Molla Nəsrəddin"lə sözünü deməyə tələsib, çox kəskin çıxışları ilə xalqın müdafiəçisinə çevrilmişdir. İstismar dünyasına qarşı çıxış edən, ziyalıları əqli və qələmi ilə mübarizəyə çağıran Cəlil Məmmədquluzadə xalqın buxovlandığı bir cəmiyyətdən xilasını yalnız maariflənməkdə, öz hüquqlarının müdafiəçisinə çevrilməkdə görürdü. "Molla Nəsrəddin" jurnalının yaradıcısı və redaktoru olan Cəlil Məmmədquluzadə bu nəşri ilə insanları qəflət yuxusundan oyatmağa çalışırdı. Azərbaycan ictimai mühitində böyük rol oynayan "Molla Nəsrəddin" ilk sayından başlayaraq düzü-düz, əyrini-əyri deməyi özünə yol seçmişdir. Sözünü kəsib, gözünü ağardan insanların hədə-qorxusunu nəzərə almadan, demokratiyanı boğan, mənfi hallarla cəmiyyətin inkişafına mane olan simasızları yazılarının qəhrəmanı seçərək, leksionumuzda eybəcərliyi ifşa edə biləcək tutarlı ifadələri onların ünvanına söyləyirdi.



Satirik qələmdən qorxub, cilddən-cildə düşən şəxslər "Molla Nəsrəddin"in tənqid hədəfinə çevrildi. Bu jurnalı zaman özü yetişdirmişdir. Məhz bu baxımdan, "Molla Nəsrəddin" ətrafını o dərəcə möhkəmləndirmişdi ki, mürtəce qüvvələr ona hücum etsələr də, bu hal təsirsiz qalırdı. Jurnalın redaktoru, sadəcə olaraq, söz demək xatirinə qələmə sarılmamışdır. Jurnalın qarşıya qoyduğu problemlərin bədii və publisistik həllində Cəlil Məmmədquluzadənin tutduğu yol, səpdiyi toxum öz bəhrəsini verirdi. Bu baxımdan ki, bu orqan milli şüurun oyanmasında və formalaşmasında müstəsna rol oynadı. Cəmiyyət üçün fəlakət gətirə biləcək şəxslərə kəskin nifrət və qəzəbin ifadə olunması, hər tipin öz xarakterində canlandırılması "Molla Nəsrəddin"çilərin əsas mövzularından idi.

Xalqın ziyalı sözünə, ziyalı fikrinə ehtiyacı yarandığı bir zamanda satirik qələmlə onun tələbatını ödəmək əsl hünər və vətənpərvərlik idi. Müsəlman dünyasını bürüyən geriliyi xalqın avamlığında görən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının çapının nə dərəcədə əhəmiyyətə malik olduğunu dərk edirdi. O, ziyalıları yalnız əqidəyə, məsləkə xidmət edib, tutduğu yolda qələmi silaha çevirərək, dövrün haqsızlıqlarını açıq-aşkar ifşa edərək, hakim qüvvələri qamçılamağa, öldürücü satira atəşinə tutmağa çağırırdı. Onların yaradıcılığının qayəsi insan ideologiyasını dəyişdirib, dövrün tələbləri səviyyəsində görmək idi. Belə ki, qarşıya qoyulan məqsəd, önəmli məsələ cəmiyyətdəki ziddiyyətlərin yaranma səbəbini göstərmək, xalqı ictimai fəaliyyətə səsləndirmək, qabaqcıl ideyalar əsasında cəmiyyəti mütərəqqi ideyalara qovuşdurmaq idi.

## "MOLLA NƏSRƏDDİN"ÇİLƏR AZƏRBAYCANDA, ELƏCƏ DƏ, YAXIN ŞƏRQDƏ MƏTBUAT MƏKTƏBİNİ YARATDILAR

Qısa bir zaman məsafəsində, "Molla Nəsrəddin" satirik jurnal kimi tanınaraq, Mirzə Ələkbər Sabiri, Nəriman Nərimanovu, Əbdürrəhim bəy Haqverdiyevi, Ömər Faiq Nemanzadəni, Əli Nəzmini və başqalarını ətrafına toplayaraq, Cəlil Məmmədquluzadənin ideya silahdaşlarına çevirdi. Görkəmli qələm sahiblərinin bir-biri ilə ideya-yaradıcılıq əlaqələri genişləndi. Cəlil Məmmədquluzədənin təbliğ etdiyi demokratizm və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti, beynəlxalq aləmdə isə nüfuz qazandırdı. Ziyalı gücünə malik olan, nurlu insanların əsərləri bu jurnalın səhifələrində yer alırdı. "Molla Nəsrəddin"çilər Azərbaycanda, eləcə də, Yaxın Şərqdə "Molla Nəsrəddin məktəbi" adlı qüdrətli mətbuat məktəbini yaratdılar. "Molla Nəsrəddin"dən sonra "Sur-İsrafil", "Azərbaycan", "Nəsimi-şimal" (İran), "Cəm" (Türkiyə), "Uklar", "Yəşen" (Tatarıstan), "Toqmaq" (Türkmənistan) və s. jurnallar çap olunaraq, beynəlxalq aləmdə mühüm rol oynamağa başladı.

Qeyd edim ki, jurnalın oxucularının da sayı durmadan artırdı. Rusiyadan başqa, hətta Asiya, Avropa və Amerikanın bir çox ölkələrində abunəçiləri var idi. Günü-gündən peşəkarlaşan və zamanın nəbzini tutmağı bacaran jurnal sərt mövqeyini və prinsipiallığını sona qədər qoruya bildi. Bütün əldə olunan uğurlara baxmayaraq, Cəlil Məmmədquluzadə irtica və qaragüruhçuların arasıkəsilməz tənqidinə sinə gərməli oldu. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qeyrət" mətbəəsində axtarışlar aparır, "Molla Nəsrəddin"in nəşrini dayandırırdı. 1920-ci ilin iyun ayında Cəlil Məmmədquluzadə ailəsi ilə birlikdə Təbrizə köçmüş, 1921-ci ildə orada "Molla Nəsrəddin"in 8 nömrəsini buraxdırmağa nail olmuşdur. 1922-ci ildə vətənə qayıdan Cəlil Məmmədquluzadə jurnalın nəşrini davam etdirmişdir. Cəlil Məmmədquluzadə böyük bir amalın daşıyıcısı olduğundan, mübarizəni davam etdirərək, daha qətiyyətli addımlar atmağa başlayır. Bu nurlu şəxs 1922-ci ildən 1930-cu illərə qədər "Molla Nəsrəddin"i mübariz orqanlardan birinə çevirmək üçün bir nəsli satirik jurnalistika sahəsində işləməyə hazırlaşdırır. Qeyd edim ki, jurnal Yaxın və Orta Şərqdə, İranda və Türkiyədə ədəbi-ictimai fikrin inqilabi, demokratik hərəkatın güclənməsinə təsir göstərmişdir. "Molla Nəsrəddin" bir məktəb, bir nümunə oldu.

Zaman ötdükcə, satirik ruhlu insanlar da yetişməkdə davam etdi. Hər onillikdə bu məqam özünü göstərirdi. Müasir dövrümüzdə də "Molla Nəsrəddin" jurnalının davamçıları yetişməkdədir. 1952-ci ildə "Kirpi" jurnalının nəşrə başlaması zaman və dövrün tələbatı baxımından reallaşmışdır. "Kirpi" jurnalı da dövrün neqativ hallarına qarşı barışmazlıq nümayiş etdirilmişdir. Jurnalda bürokratizmə və rüşvətxorluğa qarşı mübarizə güclü idi. Bu jurnaldan sonra "Kirpi"nin davamçıları "Şeytan", "Mozalan", "Karikatura", "Dəryaz" kimi satirik ruhlu qəzet və jurnallar nəşr olunmuşdur. Böyük bir təcrübədən bəhrələnən qəzet və jurnallar "Molla Nəsrəddin" ruhunu yaşatmağa, Cəlil Məmmədquluzadə ənənələrini yazılarında davam etdirməyə çalışmışdı. Onu da vurğulayım ki, jurnalın nəşri karikatura janrının inkişafında müstəsna rol oynamış və əsərlərin yaranmasına təkan vermişdir. Artıq karikaturaçı rəssamlar ordusu yaranmışdır. "Molla Nəsrəddin" jurnalının davamçısı "Kirpi" olduğu kimi, Əzim Əzimzadə məktəbinin davamçısı da Nəcəfqulu İsmayılov olmuşdur. Əzim Əzimzadə əməllərinə söykənən nəslin nümayəndələri, artıq bir cəmiyyət ətrafında sıx birləşmişdilər. Bu, Azərbaycan Karikaturaçı Cəmiyyətidir. Azərbaycan Karikaturaçı Cəmiyyəti bu gün Dünya Karikatura Təşkilatı Federasiyasının üzvüdür. Azərbaycan karikaturaçı rəssamlarının dünya karikaturaçılar ailəsində öz yeri olduğunu təsdiqləyir.

Bu gün "Molla Nəsrəddin" jurnalının 114 yaşı tamam olur. Bu illər ərzində, Cəlil Məmmədquluzadənin yaratdığı məktəbin davamçıları yetişməkdədir. Bir əsrdən artıq yol gələn jurnalın ab-havası, yaradıcısı Cəlil Məmmədquluzadənin ruhu müasir nəsillə bahəm yaşayır. Onun yaratdığı məktəb, ənənə yaşayır, bizləri düzlüyə və əqidəmizin quluna çevrilməyə səsləyir.

***ZÜMRÜD BAYRAMOVA***

# Xalq kimləri haraya göndərəcək?

## *Və ya nəzərlər yenidən AXCP sədri Əli Kərimliyə və onun yan-yörəsinə çevrilir*

***Dünya koronavirusla mübarizə aparır, hətta belə demək mümkündürsə, bəşər övladı bu müharibədə həmrəylik nümayiş etdirir. Hər bir ölkədə baş verən ölüm halı əlbəttə ki, insanlıq üçün kədər və təəssüf hissi oyadır. Düzdür, beynəlxalq siyasi arenadakı güclər siyasi və iqtisadi maraqlarını da unutmurlar, ancaq bütün hallarda əsas nəzərlər "COVID-19" adlı kabusla mübarizəyə yönəlib.***



Azərbaycan dövləti və xalqı da bu mübarizədə yer alıb və virusa qarşı əlində olan bütün imkanlardan maksimum şəkildə istifadə edir, vətəndaşlarının sağlam qalması, təhlükəsizliyi yönündə ardıcıl tədbirlər görür, bu kabusun ağır nəticələrə yol açmaması üçün hər addımı atır - sosial tələbatların təmin olunmasından tutmuş bütün mümkün variantları tətbiq edir. Lakin...

### Ondan insanlığa yaraşan digər hər hansı davranışları da gözləməyə, ümumiyyətlə, dəyməz!

Lakin təəssüfedici məqamlar da var ki, bu məqamlar "beşinci kolon" adlandırılan sözdə müxalifətin belə bir vəziyyətdə öz çirkin məqsədlərini yürütməsi, siyasi oyunbazlıqlar fonunda ictimai rəyin diqqətini əsas problemdən yayındıraraq, öz cılız "siyasətləri"nə doğru yönəltmək cəhdləridir. Söz yox ki, bu məsələdə də nəzərlər yenidən AXCP sədri Əli Kərimliyə və onun yan-yörəsinə tərəf çevrilir. Bəli, məhz bu ünsür üçün nə xalq, nə dövlət, nə də bütövlükdə ümummilli maraqlar faktoru mövcud deyil. Əslində, heç vaxt mövcud da olmayıb. Bir ünsür ki, 20 Yanvar, Xocalı kimi ümummilli hüzn günlərində belə öz iyrənc məqsədlərini güdürsə, ondan insanlığa yaraşan digər hər hansı davranışları da gözləməyə, ümumiyyətlə, dəyməz!

### Millət nə hayda, bu nə hayda...

Söhbət isə "Milli Şura"nın müsavatçı üzvü, AXCP-nin isə qeyri-rəsmi təmsilçisi, küçə uşağı statusunu qazanmış Tofiq Yaqublunun həbsindən və Ə.Kərimlinin bu həbs üzərində haray-şivən salmasında gedir. Necə deyərlər, millət nə hayda, bu nə hayda...

Demək, T.Yaqublu açıq-aşkar yol hərəkəti qanunlarının tələbini pozur, üstəlik həm suçlu, həm də güclü olmaqla vətəndaşlara qarşı zor gücü tətbiq edir, cəzasını aldıqda isə onun saxlanılması dərhal dönür-olur "siyasi motivli". Türk qardaşlarımız demişkən, ooo-ohhhh ne güzelll...! Siyasi partiyanın təmsilçisi olum, "ağa nəzərəm, belə gəzərəm" deyib qanunları pozum, vətəndaşlara əl qaldırım, onlara aid olan mülkü vurub-dağıdım, həbs olunanda da şalvarımı çəkim başıma ki, bəs bu siyasi məqsədlidir və s. Buna isə siyasi gediş deyil, siyasi həyasızlıq, hətta ləçərlik də deyilir ki, AXCP sədri hazırda bu ləçərliyi yüksək markası ilə sübuta yetirir.

### Elə isə, gedin özünüzə!

Başqa tərəfdən, Yaqublunun həbsindən sonra başı öz daxilindəki kütləvi ölümlərə qarışan ABŞ-ın dövlət departamentinin hansısa ən aşağı ranqlı dəftərxana təmsilçisi nəyinsə qarşılığında "bəyanat" lyayır, yaxud hansısa dərgisi "məqalə" yayır, Ə.Kərimli də tumanını çəkir başına və dərhal keçir klaviatura arxasına ki, bəs qoymayın, T.Yaqublu əldən gedir-filan (?!)

Ə.Kərimli, bu millətə sən, T.Yaqublu, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Fuad Qəhrəmanlı, Eldəniz Quliyev və qeyri dəymə-düşərlər lazım deyil, bu millətə dövlət, dövlətçilik və yaranmış təhlükədən qısa zamanda qurtulmaq lazımdır, sən və ətrafın isə, bu qədər ucuzluğa, siyasi ləçərliyə, həyasızlığa gedib, insanların ətini tökməklə məşğulsunuz, elə isə gedin özünüzə. Yox gedə bilmirsinizsə, millət, xalq sizi özünüzə göndərə bilər, necə ki, əvvəllər də bunu dəfələrlə edib...

***Rövşən RƏSULOV***

# BMT: Koronavirus dünyada insanlara ağlasığmaz əziyyət verir

***COVID-19 pandemiyası dünyada insanlara ağlasığmaz əziyyət verir və iqtisadiyyatın iflasına səbəb olur. Bu barədə BMT-nin baş katibi Antonio Quterreşin gender əsaslı zorakılıq və COVID-19-la bağlı bəyanatında deyilir. "Bu yaxınlarda mən ümumi mübarizəmizi pandemiyanı aradan qaldırmağa yönəltmək üçün qlobal atəşkəsin dərhal bərqərar olmasına çağırmışdım.***




Elə indi dünyanın hər yerində zorakılığa son qoyulması üçün müraciət etdim. Ancaq zorakılıq döyüş bölgəsi ilə məhdudlaşmır. Bir çox qadın və qızları təhlükə onlar üçün ən etibarlı sayılan yerdə gözləyir. Öz evlərində. Ona görə də mən bu gün dünyadakı hər bir evdə sülh üçün yeni bir çağırışla müraciət edirəm", - deyə baş katib bəyan edib.

Antonio Quterreş COVID-19-un qarşısını almaq üçün təcrid və karantinin vacibliyinə də toxunub: "Lakin nəticədə qadınlar onlarla qəddar davranan tərəfdaşları ilə bir evdə qala bilərlər. Son həftələr ərzində iqtisadi və sosial təzyiqlər, habelə xof artdıqca, qlobal səviyyədə məişət zorakılığının artmasının şahidi olduq. Bəzi ölkələrdə zorakılığa qarşı dəstək xidmətinə müraciət edən qadınların sayı iki dəfə artıb. Eyni zamanda, tibb müəssisələri və polis xidmətləri həddindən artıq yüklənir və işçi heyəti çatışmazlığı ilə üzləşir.

Yerli dəstək qrupları iflic vəziyyətdədir və ya vəsait çatışmazlığı ilə üzləşir. Məişət zorakılığı qurbanları üçün fəaliyyət göstərən bəzi sığınacaqlar bağlıdır, digərləri doludur. Mən bütün hökumətləri qadınlara qarşı zorakılığın qarşısının alınması və onlara dəymiş ziyanın ödənilməsini COVID-19-a qarşı milli tədbirlər planına daxil etməyə çağırıram.

Bu, onlayn xidmətlərə və vətəndaş cəmiyyəti təşkilatlarına qoyulan sərmayənin artırılması deməkdir. Məhkəmə sistemlərinin zorakılığa yol vermiş insanların qanun qarşısında cavab verməsini təmin etməlidir. Aptek və ərzaq mağazalarında təhdidlərə qarşı təcili bildiriş sistemləri yaradılmalıdır. Sığınacaqlar həyati əhəmiyyət kəsb edən xidmət kimi elan edilməlidir. Qadınlar üçün onlara qarşı zorakılıq törədənlərin xəbəri olmadan dəstək istəməyin təhlükəsiz yolları yaradılmalıdır. Qadınların hüquq və azadlıqları güclü və dayanıqlı cəmiyyətlər üçün mühüm əhəmiyyət kəsb edir".

# Rusiyada 40 dəqiqə ərzində cavabı çıxan koronavirus ekspress-testi hazırlanıb

Rusiyanın "Generium" şirkəti koronavirusun aşkar edilməsi üçün ölkədə ilk ekspress-test hazırlayıb.

AZƏRTAC xəbər verir ki, test Rusiya Federal Səhiyyə Sahəsinə Nəzarət Agentliyində qeydiyyatdan keçib. Yeni test 40 dəqiqə ərzində 94 faiz dəqiqliklə insanda koronavirusun olub-olmamasını müəyyən edir.



Bundan əlavə, aprelin 6-dan Rusiyada ev şəraitində test sifariş verilməsi xidməti fəaliyyətə başlayır. Yeni servis testdən keçmək istəyən hər kəsə koronavirusa yoluxub-yoluxmadığını müəyyən etmək imkanı verir. Xidmətlər pulludur. Rusiya Molekulyar Diaqnostika Mərkəzinin əməkdaşları sifarişçinin evinə gələrək, diaqnoz dəstini ona verir, sifarişçi biomaterialı özü götürərək mərkəzin əməkdaşına qaytarır. Testin nəticələri 1-2 gün ərzində elektron poçta göndərilir. Qeyd edək ki, aprelin 5-nə olan məlumata görə, Rusiyada 5 389 koronavirusa yoluxma faktı qeydə alınıb. Moskvada 3 893 nəfərdə bu infeksiya aşkar edilib.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Millət bir daha kimin-kim olduğunu görsün!

***Koronavirusun dünyada tüğyan etdiyi bir zamanda dövlətlər öz vətəndaşlarının sağlamlıqlarının mühafizəsi istiqamətində kifayət qədər önləyici tədbirlər görür, müxtəlif məhdudiyyətlər tətbiq edir, eləcə də həmin tədbirlər çərçivəsində həmrəylik nümayiş etdirir. Misal üçün, infeksiyadan ən çox əziyyət çəkən İtaliyada, İspaniyada, Almaniyada və s. Avropa ölkələrində virtual dəstək kampaniyaları reallaşdırılır.***

Sevindiricidir ki, Azərbaycanda da bu reallıq mövcuddur. Hətta ölkəmizdə gerçəkləşdirilən həmrəylik kampaniyaları eyni zamanda, nümunəviliyi ilə diqqət çəkir. Ölkə başçısı İlham Əliyevin göstərişi ilə koronavirusla mübarizə istiqamətində yardım fondunun yaradılması da, məhz bu xüsusdandır. Artıq Prezident İlham Əliyev, eləcə də ölkənin birinci xanımı, Vitse-prezident Mehriban xanım Əliyeva öz birillik maaşlarını həmin fonda keçiriblər. Həmçinin, bir sıra dövlət qurumları, şirkətlər, ayrı-ayrı biznes adamları da bu kampaniyada fəallıq göstərirlər.

Daha bir qürurverici amil xarici ölkələrdə yaşayan, təhsil alan həmvətənlərimizin Azərbaycana gətirilməsi yönündə göstərilən çalışmalardır. O cümlədən, xarici ölkələrdə yaşayan azərbaycanlılar ölkələrinə geri dönmələrini gözləyən soydaşlarına öz evlərinin qapılarını açır, mənzillərini bölüşürlər. Əlbəttə, bu böyük bir həmrəyliyin nümunəsidir ki, heç bir digər ölkələrin xalqları bu kimi örnəyi göstərməyiblər. Yəni bu, bilavasitə AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN yazdığı növbəti tarixdir desək, heç də yanılmarıq.

Ancaq toxunacağım digər bir məsələ bu gün özlərini "müxalifət cinahı" kimi təqdim edib, həmin statusdan sui-istifadə etmələri qalsın bir yana, ümummilli məsələdə düşməncəsinə davrananlarla bağlı olacaq. Söhbət başqa vaxtlarda "xalq", "millət" bağırıb küçələrdə tərəfdarlarını həbs etdirən anarxist Ə.Kərimlidən, onun yan-yörəsində hərlənən "milli şuraçılardan" gedir. "Beşinci kolon" kimi də adlandırılan bu ünsürlər - Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Eldəniz Quliyev və sairləri görəsən nəyə görə sözügedən kampaniyaya qoşulmurlar? Məgər onlar da iddia etmirlərmi ki, bu dövlət onlarındır, ya da "hakimiyyətə iddialıyıq" kimi boşboğazlıqlar etdikləri bir vaxtlarda dövlət onların da dövləti idisə, bəs indi nə oldu? Hansı səbəblərə görə, hətta ən adi vətəndaşların dəstək fonduna öz məvaciblərini bağışladıqları halda, sözügedən boşboğazlar milli həmrəylikdən yan keçirlər? Bax, buradan belə bir reallıq meydana gəlir: bu ünsürlər üçün xalq, millət, dövlətçilik faktoru heç vaxt önəm daşımayıb. Onlara lazım olan erməni lobbisi və həmin lobbinin pulları hesabına fəaliyyət göstərən xarici qurumlara yalmanıb, dollar və avro qazanmaqdır. Bu gün Ə.Kərimli sosial şəbəkələrdə Azərbaycan dövləti əleyhinə yazmaqdan barmaqlarını döyənək edib, Fransada erməni çörəyi yeyən Qənimət Zahidin, xarici kəşfiyyatçıların altına yıxılıb-alma yeyən Sevinc Osmanqızının canlı efirlərində çənə vurmaqdan boğazı yırtılıb. Amma ümumxalq amili ortaya çıxanda çəkilib-durub bir kənarda ki, bəs pulum-param yoxdur (?!) Əcəba, gülbalası Türkel Kərimlinin Britaniyadakı bahalı təhsil haqlarını ödəyən, eyş-işrət məclislərini təşkil etmək üçün yüz minləri xərcləyən kim idi Ə.Kərimli? Bu ifadələr yalnız Ə.Kərimliyə aid deyil, bu ifadələr digər beşinci kolon ünsürlərinə də aiddir. Məsələn, orada-burada 300-500 avro üstündə bir-birlərini qıran Orduxan Teymurxana, Məhəmməd Mirzəliyə, Tural Sadıqlıya, Səid Nuriyə və onlar kimi digər tullantılara!

Əslinə qalanda bu siyasi quldurların, Vətən xainlərinin hər hansı bir dəstəklərinə ehtiyac da yoxdur. Necə deyərlər, dövlətimiz, hakimiyyətimiz, xalqımız var olsun! Sadəcə, xatırlatmağa ehtiyac var idi ki, millət bir daha hansı vəziyyətdə kimlərin-kim olduğunu bir daha görsün!

***P.S. Yeri gəlmişkən, bu vurhavurda, axecepeçi Ə.Kərimlinin "sağ əli" Tofiq Yaqublu da quduzluq virusuna yoluxub və küçədə filmlərdəki vəhşi zombilər kimi düşüb vətəndaşların canına...***

# Sevinc Osmanqızı və Əli Kərimli təxribat virusu yayırlar

## *Satqın müxalifət virusdan maraqları üçün istifadə etməyə çalışır*

***Mövcud reallıqlar təsdiq edir ki, Azərbaycan müxalifəti müstəqil fəaliyyət göstərmək gücünə malik deyil. Bunun da səbəbi onların ictimaiyyət tərəfindən dəstəklərinin olmamasıdır. Cəmiyyətin birmənalı mövqeyi ondan ibarətdir ki, dağıdıcı müxalifət milli və dövlətçilik maraqlarına qarşı qərəzli mövqe nümayiş etdirir.***




Bəzən xarici qüvvələrin maddi və mənəvi dəstəyinə arxalanaraq, ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa və qarşıdurmalar yaratmağa cəhd göstərir. Təbii ki, bu da ictimai rəydə müxalifətə qarşı narazılıqlar yaradır. Ən pisi isə, insanlar müxalifətin başbilənləri hesab olunan İsa Qəmbərə, Arif Hacılıya, Əli Kərimliyə və digərlərinə nifrət bəsləyirlər. Bunu müxalifət liderlərinin özləri də dərk edir və başa düşürlər. Ona görə də, çıxış yolunu xarici qüvvələrlə əməkdaşlıq münasibətlərini genişləndirməkdə görürlər.

Təbii ki, müxalifət liderlərinin uğursuzluğa düçar olmasının başlıca amili şəxsi maraqlardır. Onların milli maraqlardan çıxış etmələri də çətin məsələdir. Arada bir yedək rolunda çıxış edən "VİP" və KAXCP qərargahında toplaşıb, erməniləri ittiham edən bəyanatlarla cıxış etmələri sadəcə görüntü xarakteri daşıyır. Cəmiyyətə "bizdə işə yarayırıq" mesajını vermək istəyidir. Ancaq əməli fəaliyyətlərində başqa fəaliyyət yolu tuturlar. Misal olaraq, qacaqmalcılıq yolu ilə Azərbaycana keçmək istəyərkən həbs olunan Əfqan Muxtarlı olayından sonra Gürcüstana üz tutan Müsavat başqanı A.Hacılının orada erməni dostları ilə görüşərək Azərbaycan əleyhinə şər, böhtanlar səsləndirməsini göstərmək olar. Eləcə də "Milli Şura"nın sədri Cəmil Həsənlinin Avropaya səfərləri zamanı Azərbaycanla bağlı əsassız ittihamlar səsləndirməsini də fakt olaraq demək olar. Məhz bu amillərə əsaslanaraq demək olar ki, müxalifət liderləri sağlam düşüncə daşıyıcısı heç zaman ola bilməz. Demokratik Azərbaycan Dünyası Partiyasının keçmiş sədri Məmməd Əlizadə mətbuata açıqlamasında bildirib ki, xaricin sözü ilə oturub duran müxalifətdən dövlətin maraqları naminə nəsə edəcəyini gözləmək yersizdir: "Ölkəmizdə bir sıra qüvvələr var ki, xalqın etimadını qazana bilmədiklərindən çıxış yollarını xaricdə axtarmağa üstünlük verirlər. Buna görə də tez-tez xaricdəki hamilərinə üz tuturlar". Onun sözlərinə görə, onlar bütün hərəkətlərini xaricdəki bəzi qüvvələrlə əlaqələndirdiyindəndir ki, günü-gündən sayları daralır: "Belə davam edəcəyi təqdirdə, müxalifətin həmin qanadı özünü xalqının qarşısında, heç şübhəsiz, daha da gözdən salacaq".

### Sevinc Osmanqızı dezinformasiyanın yayılması üçün səylər göstərir

Müxalifətin ağır və böhranlı durumu fonunda bəzi partiya sədrləri dünyada hökm sürən koronavirus epidemiyasının yayılmasından və bunun Azərbaycana təsirindən öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırlar. Bu məqsədləri uğrunda mübarizədə xaricdəki "söyüş müxalifəti" üzvlərinin imkanlarından da bəhrələnirlər. Misal olaraq AXCP sədri Ə.Kərimlinin ABŞ-da oturub Azərbaycanın milli və dövlətçilik maraqlarını təhdid etməyə çalışan Sevinc Osmanqızını dezinformasiyalarını, şər və böhtanlarını daha geniş şəkildə yaymağa təhrik etməsini göstərmək olar. Demək olar ki, hər gün Ə.Kərimli "Osmanqızı TV"nin canlı efirinə çıxaraq əvvəlcədən planlaşdırılmış suallara uyğun olaraq koronavirusla bağlı öz mülahizələrinə və dar düşüncəsinə uyğun cavablar verir. Hər fürsətdə bəyan edir ki, Ermənistanda və Ermənistana himayədarlıq edən ölkələrdə koronavirusla bağlı mübarizə tədbirləri daha anlaşılan formada aparılır. Hətta utanıb-çəkinmədən sübut etməyə çalışır ki, o, Qərbin müəyyən maraqlı dairələrinin himayəsi altındadır. Özü-özünü ifşa edən bu cür açıqlamaları ilə Ə.Kərimli Azərbaycanın dövlətçilik maraqlarından uzaq düşdüyünü və onun üçün başlıca mənafe özünün istək və arzularının reallaşmasıdır. Halbuki Azərbaycanda koronavirusa qarşı mübarizə tədbirləri çərçivəsində görülən işlər beynəlxalq arenada yaxşı nümunə kimi göstərilir. Hətta Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Azərbaycan Prezidentinə göndərdiyi məktubunda koronavirusa qarşı aparılan effektli mübarizə tədbirlərinə görə öz təşəkkürünü bildirib.

Söz yox ki, bütün ağır və çətin proseslərdən uğurla çıxan Azərbaycan koronavirus epidemiyasından az itkilərlə adlamış olacaq. Təbii ki, bu halda utanmalı olan və üzüntülü həyata məhkum ediləcək şəxslər Ə.Kərimli, S.Osmanqızı, A.Hacılı və digərləri olacaq.

***İ.ƏLİYEV***

# "Milli Şura" təxribat maşınına çevrilir

## *Mais Səfərli: "Müxalifət sifarişlər yerinə yetirir"*

"Milli Şura"nın sədri Cəmil Həsənli və AXCP sədri Əli Kərimli koronavirus epidemiyasının yayılmasından sonra Azərbaycan cəmiyyətini və ictimaiyyətini təhdid edən və şər-böhtanlarını genişləndirən açıqlamalarla çıxış edir və sosial şəbəkələrin diqqət mərkəzinə çevrilməyə çalışırlar. Söhbət etdiyimiz müsahiblərimiz bu ağır və çətin bir gündə ictimai maraqlara qarşı bu dərəcədə düşmən mövqe sərgiləməyin siyasətçiyə baş ucalığı gətirməyəcəyini və daim onların ittiham hədəfində olacaqlarını bildirdilər. "Yurddaş" Partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, bu gün koronavirus bütün dünyanın diqqətini cəlb edən bir məsələdir: "Yəni bu virus getdikcə daha sürətlə yayılır və insanların həyatına son qoyur. Belə bir təhlükəli vəziyyətdə təbii ki, bütün dövlətlər öz vətəndaşlarını qorumaq üçün hərəkətə keçiblər. Azərbaycanda koronavirusa qarşı aparılan dövlət səviyyəsində mübarizə, bu təhlükənin səviyyəsinə tam uyğun şəkildə aparılır və çox sevindirici haldır ki, Azərbaycan dövləti, başda Prezident İlham Əliyev olmaqla atılan bütün addımlar və qəbul edilən bütün qərarlar, bu təhlükənin qarşısını xeyli almışdır. Burda bir çox dövlətlərdə olduğu kimi xaotik proseslər getmir. Bildiyiniz kimi, hətta inkişaf etmiş ABŞ-da və Avropanın bir çox ölkələrində proses nəzarətdən çıxır və idarəolunmaz bir vəziyyətə gəlib çıxıb. Amma şükürlər olsun ki, Azərbaycan Prezidentinin vaxtında qəbul etdiyi qərarlar və bu qərarların icra olunması Azərbaycanda ağır vəziyyət yaratmayıb. Ölkəmizin birlik, həmrəylik nümayiş etdirdiyi dönəm də çox təəssüflər olsun ki, sosial şəbəkələrdə Azərbaycanda panika, çaşqınlıq, kütləvi psixoz halları yaratmağa çalışan, dezinformasiyaları ilə diqqət mərkəzində olmağa çalışan qüvvələr var. "Milli Şura"nın sədri C.Həsənli və AXCP sədri Ə.Kərimli koronavirus epidemiyasının yayılmasından sonra Azərbaycan cəmiyyətini və ictimaiyyətini təhdid edən və şər-böhtanlarını genişləndirən açıqlamalarla çıxış edir və bununla da sosial şəbəkələrin qəhrəmanına çevrilmək istəyirlər. Bu da onu göstərir ki, adları çəkilən bu şəxslərin bu cür hərəkətlərə əl atması hansısa sifarişi yerinə yetirmək istəyindən irəli gəlir. Yəni onlar öz sözlərini demirlər. Bir sözlə, belə fəlakətdən adları çəkilən şəxslər öz siyasi məqsədləri üçün istifadə edirlər. Amma onların bu cür hərəkətləri düzgün bir hərəkət deyil. Demək olar ki, Azərbaycan cəmiyyəti onları və çıxışlarını qəbul etmir. Həmin şəxslərin sosial şəbəkələrdə çıxış edib, ağa qara deməkləri və bu virusdan öz məqsədləri üçün istifadə etmələri heç vaxt onlara baş ucalığı gətirməyəcəkdir. Çünki xalq onları çox yaxşı tanıyır, onları qınayır və onların dediklərinin də heç birinə inanmır".

***GÜLYANƏ***



**Təhmasib Novruzov**

# Kor ana virus və onun nankor "övladları"

Bu gün bütün insanlığın, ümumən, planetimizin bütün canlı məxluqatının vətəni olan Yer kürəsi ümumbəşəri bəla ilə üz-üzədir. Dünya koronavirus adlandırdığımız bir gözəgörünməz varlıqla savaşır. Mən bu bəlanın hardan gəlməsi, insanlığın canına necə daraşması, dünyanı necə vəlvələyə salması ilə bağlı geniş danışmaq fikrində deyiləm. Dünyanın bütün siyasətşünasları da, siyasətçiləri də, din xadimləri də, filosofları da, yazarları da, elm adamları da, loğmanları da bu haqda yetərincə fikirlər səsləndirirlər. Biri-birini təkzib edən bu fikirlərin hansının gerçək, hansının fantaziya, hansının da siyasi konyuktura olduğunu heç bir sirri əbədi saxlamayan tarix özü açacaq, ortaya qoyacaq. O zaman bu virusun gerçəkdən təbii yaranmış və cəmiyyətlərin boğazına çökmüş bir bəla, din xadimlərinin iddia etdiyi kimi, yaradanın yolunu azmış bəşəriyyətə göndərdiyi qiyamət nişanəsi, yoxsa hansısa güclü dövlətin digər dövlətə qarşı hazırladığı bioloji silah olduğu ortaya çıxacaq.

Bunu dəqiq bilmək üçün yaşamaq, illəri arxada qoymaq, gerçəklərin üzə çıxmasının şahidi olmaq gərəkdir. Bəli, məhz yaşamaq! Özümüzün və ətrafımızın çoxsaylı problemlərinin həlli naminə yaşamaq nə qədər gərəklidirsə, bəşəriyyətin bu probleminin həlli və həqiqətlərin ortaya çıxmasının canlı şahidləri olmaq naminə yaşamaq ondan min qat daha gərəkli, daha vacibdir. Bəs necə edək ki, yaşaya, bu bəşəri bəlanın məngənəsindən qurtula bilək?

Baxın, gözlə, hətta adi mikroskopla belə görünməyən bir varlıq dünyanın ən nəhəng güc sahiblərini belə diz çökməyə vadar edib. Bu, istənilən baxış bucağından kainatın insan idrakının anlamağa gücü yetməyən möcüzəsidir və bu baxımdan, qeyri-adi qüdrətin insanlığa dərs verməsi kimi dini-mifoloji fikrin arxasından boylanan fəlsəfi düşüncəni əsaslı hesab etməyinə dəyər. Ancaq unutmalı deyilik ki, həmin o qeyri-adi qüdrət sahibi hər kəsi əməllərində müstəqil yaratmış və istənilən bəla ilə savaşmağı, xilas, ya da məhv olmağı öz öhdəsinə buraxmışdır. Bu, müqəddəs dini kitablarda, xüsusən, sonuncu ilahi kitab olan Qurani-Kərimdə də əksini tapmışdır. Deməli, bu bəla ilə də savaşmaq, mübarizə aparmaq, ona qalib gəlmək insanların öz öhdəsinə düşən tarixi missiyadır. Belədə bu missiyanı bu günün insanları - milliyyətindən, dinindən, irqindən asılı olmayaraq hər bir şüur sahibi ağılla və qətiyyətlə aparmağa borcludur. Tarix bu günləri bizlərdən, ilk növbədə, bunu tələb edir. Bütün dünyaya, hətta bəzən ulduz müharibələrindən danışaraq kainata meydan oxuyan ABŞ kimi müqtədir güc sahibi, eləcə də Rusiya, Çin, Böyük Britaniya, Almaniya, Fransa kimi müasir texnologiyanın inkişafından yararlanıb nüvə cəbhəxanası yaradan nəhəng ölkələr də bu gözəgörünməz varlığın qarşısında aciz duruma düşübsə, deməli, burda bütün insanlığın bir yumruq olmasına ehtiyac var. Ədalət naminə deməliyik ki, dünyanın əksər ölkələri, xalqları bu həqiqəti birmənalı qəbul edir və belə birliyin əldə olunmasına çalışır. Xüsusi qeyd etməyi lazım bilirəm ki, dünənə kimi islama qarşı barışmazlıq nümayiş etdirən, Avropa ölkələrinin əksəriyyətində məscidlərlə yanaşı kilsələrdə də azan verilməsi Qərbin belə birliyə can atmasından xəbər verən amillərdəndir. Bir sıra dövlətlər bu bəladan da özlərinin çıxarları üçün yararlanmağa can atırlar ki, bu da, əlbəttə, anormal olduğu qədər də təbii qəbul edilməlidir. Bununla belə, hesab etmək olar ki, dünya bu ümumbəşəri bəlaya qarşı vahid cəbhədə birləşməkdədir ki, bunun əksi, hesab edirəm ki, insanlığın sonu demək olar. Beləliklə, dünya insanlığın xilası naminə birləşmək əzmindədir və bəşəriyyətin indiki bəladan xilas yolu da məhz bundadır.

Gələk, indiki dünya xəritəsində çox kiçik olan ölkəmizdəki duruma. Əvvəlcədən deyim ki, virusun yayılmağa başladığı ilk günlərdən Azərbaycan hakimiyyəti onun ciddiliyinin fərqində oldu və ilkin dövrdə həyata keçirdiyi qabaqlayıcı tədbirlərlə ən yaxın qonşuluğumuzda tüğyan edən koronavirus infeksiyasının ölkəmizə keçməsinin qarşısına sədd çəkməyə çalışdı. Lakin pandemiyaya çevrilən bu bəla dünyanın bir parçası olan Azərbaycana da ayaq açdı və cəmiyyətimizdə təşviş yaratmağa başladı. Ölkə rəhbərliyi bütün imkanları ən yüksək səviyyədə bu xəstəliyə qarşı mübarizəyə səfərbər etdi və mümkün olan bütün addımlar mərhələ-mərhələ atılmağa başladı. Bu gün də davam edən dövlət tədbirləri Azərbaycan insanının bu bəladan qurtulmasına hesablanmış, həm də ciddi şəkildə ölçülüb-biçilərək atılan addımlardır ki, mənim düşüncəmə görə, bütün bunlara alternativ nəsə etməli olduğumuzu söyləməyə belə imkan yeri qoyulmadı. Belə bir məqamda, özlərini siyasətçi adlandıran bəzi qüvvələr, əsasən də, xaricdə oturub məlum qüvvələr tərəfindən bəslənən və ölkəmizə qarşı qarayaxma kampaniyası aparmaq üçün istifadə olunan ünsürlər - kor ana virusun özünəbənzər "övladları" ampulalarından, bir millimetr də olsa, kənara çıxmadılar və hələ də çıxmırlar.

Onların iyrənc iftiralarını, şər-böhtan dolu yağmurlarını, erməni iyi verən qarayaxmalarını sadalayıb ürəkləri bulandırmaq istəmirəm. Təkcə bir faktı demək kifayətdir ki, dünyanın koronavirusla mübarizə apardığı bir zamanda, meydanlara yığışmaq imkanından məhrum olan bu zavallılar "onlayn mitinq" keçirmək fikrinə düşdülər. Rəhmətlik Məşədi İbad demişkən, bizlər Tarixi-Nadiri yarısından da artıq oxumuşuq, amma "onlayn mitinq" deyilən bir aksiya formasına heç yerdə rast gəlməmişik. Bu "mitinq" baş tutmayanda, bilmədilər nə etsinlər, başladılar ayrı-ayrı özləri kimi düşüncə baxımından gerizəkalı (yəni ağıldankəm) adamabənzərləri danışdırıb sosial şəbəkələrdə yaymağa. Yayılan o videolardan da danışmağa lüzum görmürəm. Ona görə ki, özləri-özlərini bu videolarla elə rüsvay edirlər ki, istəmirəm sonra desinlər ki, mən onları rüsvay elədim.

Xülasə, dediyim odur ki, indiki dünya, hətta bir-birinə düşmən olan, bir-birini yer üzündən silməyə çalışan düşmən ölkələr belə iddialarını bir kənara qoyub ümumi mübarizə cəbhəsində birləşdikləri halda, bizim bu üç-beş sosial şəbəkə virusunun (oxu: kor ana virusun sevimli "balaları") millətə nifrətinin kökündə nə dayanır ki, bu məqamda belə ümummilli birliyimizə xələl gətirməyə can atırlar? Xələl gətirə bilmirlər və bilməzlər də. Ancaq, atalarımızın məlum kəlamında deyildiyi kimi, milçək bir şey deyil, sadəcə, ürək bulandırır. Bunların bu milçəklikdən yaxa qurtarmaları üçün nə etmək lazımdır, görəsən? Məncə, bu məxluqlar da bizim milli viruslarımızdır. Özü də kor ana virusu - yəni sahiblərini vecə almayan viruslar! Zamanı çatıb ki (bəlkə də hələ gecikmişik), milli viruslarımıza qarşı da antivirus vaksini axtarışına başlayaq...

P.S. Yazını bitirdikdən sonra yeni məlumat aldım. Yenə xaricdən xəbər yayırlar ki, növbəti həftə sonu yenə həmin kor ana virusun "övladları" "onlayn mitinq" keçirmək planlaşdırırlar. Əvvəl əsəbləşdim. Amma sonra ağlıma gələn bir fikir məni gülümsəməyə vadar etdi. İndi "onlayn mitinq" eləmək istəyən kor ana virusun "övladları", belə getsə, içlərindəki bala virus sindromundan yaxa qurtara bilməyəcəklər. O zaman bu gülüş obyektinə çevrilənlər övladlarına "onlayn toy" eləməyə, öldükləri zaman "onlayn dəfn" və "onlayn ehsan" mərasimləri keçirməyə hazır olsunlar. Dəlinə ağıl ver, İlahi!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

Son səhifə

7 aprel




# Dördqat NBA çempionu "Lion"un prezidenti olacaq?

Amerika Milli Basketbol Assosiasiyasının (NBA) dördqat çempionu Toni Parker gələcəkdə Fransanın "Lion" futbol komandasının prezidenti ola bilər. Bu barədə Fransanın "L'Equipe" nəşrinə klubun hazırkı prezident Jan-Mişel Ola bildirib. 71 yaşlı Jan-Mişel Ola inanır ki, dörd il sonra futbol klubunun rəhbərliyini Toni Parkerə təhvil verməyə hazır olacaq. Jan-Mişel Ola 1987-ci ildən bəri "Lion" klubuna rəhbərlik edir. Otuz yeddi yaşlı Toni Parker isə Fransanın "Villeurbanne" basketbol klubunun prezidentidir.

# Maykl Ceksonun ağ əlcəyi 104 min dollara satılıb



***Məşhur müğənni Maykl Ceksonun ağ əlcəyi ABŞ-ın Texas ştatında keçirilən hərracda satılıb. SİA xəbər verir ki, adının gizlin qalmasını istəyən alıcı əlcəyə görə 104 031 dollar ödəyib. Bildirilir ki, yeni sahib əlcəyin 1998-ci ildə Unicef-ə bağışlandığı barədə məktubu da alıb.***

Xatırladaq ki, "Off the Wall" (1979), "Thriller" (1982), "Bad" (1987), "Dangerous" (1991), "HIStory" (1995) kimi milyonlarla satılan solo albomlara imza atan Cekson dünyanın "Pop Kralı" olaraq tanınıb və albomları bütün dünyada 140 milyon üzərində satılıb.

# Budapeştdə avtomobillərin parklanması pulsuz oldu




Dünəndən Budapeştin bütün ərazisində avtomobillərin parklanması üçün ödəniş müvəqqəti ləğv olunub. Macarıstanın Baş Naziri Viktor Orban bunu bazar günü elan edib. Baş Nazir Hökumətin qərarını bununla izah edib ki, koronavirus epidemiyası şəraitində ictimai nəqliyyatda insanların təmasda olması ehtimalını daha da azaltmaq lazımdır. O deyib: "Kim avtobus, trolleybus salonlarına, metro və ya tramvay vaqonlarına girmədən, şəxsi avtomobillərdə gedə bilərsə, məhz belə etsin".

# Qətər əmiri: "İstər qar olsun, istər çovğun, Mbappe qalacaq"




PSJ-nin hücumçusu Kilian Mbappe mövsümun sonu komandadan getməyəcək. Qol.az "L'Equipe" nəşrinə istinadən xəbər verir ki, bu haqda klubun sahibi, Qətər əmiri Tamim bin Hamad Əl-Tani qərar verib. O, futbolçunun başqa bir kluba keçidinə qadağa qoyub. "İstər qar olsun, istər çovğun, Mbappe qalacaq. Bu qərarı əmir verib" - deyə mənbə bildirib.

Daha öncə yayılan xəbərə görə, fransalı futbolçunu "Real" transfer etmək istəyir. Amma mənbə qeyd edib ki, Madrid klubunun təklifinə baxılmayacaq. Qeyd edək ki, Mbappenin PSJ ilə müqaviləsi 2022-ci ilin iyununda başa çatır.

# Mingəçevirdə axtarışda olan qadın saxlanılıb

Aprelin 1-də Mingəçevir şəhəri ərazisində Yevlax rayon sakini K.Kərimovun cibindən 210 manat oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş, Cinayət Məcəlləsinin 177-ci (oğurluq) maddəsi ilə axtarışda olan S.Kadırova Şəhər Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ətrafında aparılmış tədbirlərlə onun Mingəçevir şəhər sakini A.Əliyevin cibindən 155 manat oğurlaması da müəyyən edilib. Faktla bağlı araşdırmalar davam etdirilir.

# Taksi sürücülərinə ŞAD XƏBƏR

***Taksi sürücüləri artıq Azərpoçtdan da fərqlənmə nişanını əldə edə biləcəklər. SİA-nın məlumatına görə, bu barədə Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) mətbuat katibi Nuridə Allahyarova bildirib.***




Onun sözlərinə görə, yeni qayda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (NRYTN) təşəbbüsü ilə yaradılıb: "Şəhərlərarası gediş-gəlişə məhdudiyyət qoyulduqdan sonra biz düşündük ki, taksi sürücülərinin işini asanlaşdıraq. Belə ki, bundan sonra onların bir şəhərdən digər şəhərə gedib DANX-ın regional mərkəzinə yaxınlaşmasına ehtiyac qalmır. Bundan sonra nazirliyin digər qurumu olan Azərpoçt artıq sənədləşmə prosesində iştirak edir. Sürücülər Azərpoçtun hər regionda olan filialına yaxınlaşaraq fərqlənmə nişanını əldə edə bilərlər. Onlar bu sənədi əldə etdikdən sonra sürücü haqqında məlumat "icaze.e-gov.az" saytına yerləşdiriləcək". N.Allahyarova bildirib ki, bu günə kimi 201 taksi sürücüsü fərqlənmə nişanı əldə edib. Vəziyyətdən sui istifadə etmək istəyən şəxslərə fərqlənmə nişanı verilməyəcək. Son 6 ayda mütəmadi olaraq fərqlənmə nişanı alan taksi sürücülərinə üstünlük veriləcək.

# Bakıda evdən 5000 manat dəyərində qızıl-zinət əşyaları oğurladı

Oğurluqda şübhəli bilinən Bakı şəhər sakini R.Abdulqədirov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Kriminalistik Tədqiqatlar İdarəsi və Xətai RPİ 36-cı PB əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 4-də rayon ərazisindəki mənzillərin birindən 5000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini R.Abdulqədirov saxlanılıb.

# Rusiyada koronavirusa yoluxanların sayı 6343 nəfərə çatıb

Rusiyada koronavirus infeksiyasına yoluxanların sayı 6343 nəfərə çatıb. AZƏRTAC xəbər verir ki, ötən gün ərzində ölkənin 80 regionunda daha 954 nəfərdə infeksiya aşkarlanıb. Ümumilikdə, indiyədək Rusiyada 406 nəfər sağalıb, 47 xəstə ölüb. Moskvada bir gündə COVID-19 virusunun yaratdığı xəstəlikdən əziyyət çəkənlərin sırasına daha 591 nəfər əlavə olunub. İndi Rusiya paytaxtında 4848 xəstə qeydiyyatdadır.




*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**